www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 yanvar 2019-cu il Çərşənbə № 5 (7175) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıya qar yağmamasının səbəbinə dair ilginc iddia

yazısı səh.12-də

**Gündəm**

### Mehman Hüseynov aclığı dayandırdı və şəkil çəkdirdi



Hüquq müdafiəçiləri və atası həbsdəki bloggerlə görüşdü

yazısı səh.3-də

# İNQİLAB EYFORİYASI BİTDİ - PAŞİNYAN MƏHŞƏR AYAĞINA ÇƏKİLİR

Düşmən ölkədə yeni kritik dönəm başlayır; "Keçid dövrü başa çatdı, səhv limiti tükəndi" yazan qərbyönlü erməni mediası Paşinyandan real iş tələb edir; **erməni baş nazir əvəzi isə xalqa Leninsayağı çağırış etdi:** "İşləmək, işləmək, işləmək..."




yazısı səh.9-da

### Bloggerlər jurnalistdir, yoxsa... - iki rəy

yazısı səh.6-da

### Yeni binalara qaz çəkilməməsinin arxasındakı səbəblər

yazısı səh.14-də

### KTMT-də müşahidəçi ölkə olaqmı - müxalif rəylər

yazısı səh.8-də

### Deputat oğlunun iranlı turisti döyməsi xəbərindən danışdı

yazısı səh.7-də

### Rusiya və İranı Xəzərdə yaxınlaşdıran səbəblər

yazısı səh.9-da

### Pensiyalarda artım fevralda olacaq

yazısı səh.6-da

### "Donuz qripi" necə yayılır, necə öldürür...

yazısı səh.12-də

### Nazarbayevə qarşı "erməni ssenarisi"

yazısı səh.13-də

### Un bahalaşsa da, çörək əvvəlki qiymətə olacaq

yazısı səh.15-də

### Bakıdakı parkinqlərə yeni qiymətlər qoyulacaq -rəsmi

yazısı səh.15-də

## Apreldə növbədənkənar parlament seçkiləri keçiriləcəyi xəbəri yayıldı

Milli Məclisə seçkilərin ertələnməsini zəruri edən şərtlər; yazda "siyasi hərarət" yüksələcək

yazısı səh.5-də



### Ərdoğan Trampın müşavirı ilə görüşdən imtina etdi

yazısı səh.10-da



### Deputatdan Əkrəm Əylisliyə sərt sözlər

yazısı səh.4-də



### Abid Şərifovun "23 illik vəzifə" haqda dediklərinə reaksiyalar

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 5 (7175) 9 yanvar 2019



## AZAL Almatıya uçuşlara başlayır

**"Azərbaycan Hava Yolları" QSC (AZAL) bu il aprelin 2-dən Bakı-Almatı-Bakı marşrutu üzrə müntəzəm uçuşlara başlayacaq. Virtualaz.org aviaşirkətə istinadən bildirir ki, reyslər həftədə iki dəfə - çərşənbə axşamı və şənbə günləri, ekonom sinif, komfort-klub və biznes sinif konfiqurasiyalı "Airbus A319" tipli təyyarələrlə, Heydər Əliyev Beynəlxalq Aeroportunun 1-ci terminalından həyata keçiriləcək.**

## Rusiyanın Ermənistandakı hərbi bazasının qarşısında etiraz aksiyası keçiriləcək

**Yanvarın 12-də Rusiyanın Ermənistandakı hərbi bazasının qarşısında etiraz aksiyası keçiriləcək.**

Ermənistan KİV-lərinin məlumatına görə, bunu aksiyanın təşkilatçısı olan Ermənistan Avropa Partiyasının Təşkilat Komitəsinin sədri Tiqran Xzmalyan facebook səhifəsində yazıb.

O bildirib ki, aksiya Avetsyan ailəsinin qətlinin 4-cü ildönümünə, süpürgəçi Cülyetta Qukasyanın qətlə yetirilməsinin 40-cı gününə həsr edilib.

Qeyd edək ki, Gümrüdəki 102 saylı Rusiya hərbi bazarının hərbçisi Valeri Permyakov 2015-ci il yanvarın 12-də Gümrüdə bir erməni ailəsinin 7 üzvünü qətlə yetirmişdi.

Xatırladaq ki, Rusiyanın 102 saylı hərbi bazasının 23 yaşlı hərbçisi 2018-ci il dekabrın 2-də 57 yaşlı süpürgəçi Cülyetta Qukasyana işgəncə verərək qətlə yetirməkdə şübhəli bilinir. Bu hadisə ilə bağlı istintaqı Rusiya Hərbi Prokurorluğunun müstəntiqləri aparır. C.Qukasyanın hüquqi varisi Rusiya hərbçisinin Ermənistanın hüquq-mühafizə orqanlarına təhvil verilməsini tələb edir.

### Başsağlığı

**Rauf Arifoğlu, Azər Ayxan Namiq və Faiq Abbasovlara qardaşları
Avtandil Abbasovun
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

***

**Rauf Arifoğlu və Azər Ayxan Fikrət Qasımova qudası
Avtandil Abbasovun
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**




## «Bakcell» məktəbliləri "İnternetdən təhlükəsiz istifadə" ilə tanış edir

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi «Bakcell», Azərbaycanın ilk FTTH provayderi olan ENGİNET şirkəti ilə birlikdə məktəblilər üçün İnternetdən təhlükəsiz istifadə üzrə maarifləndirmə tədbirlərini davam etdirir.**

**"İnternetdən təhlükəsiz istifadə" metodlarına dair növbəti maarifləndirici təlim Respublika İncəsənət Gimnaziyasının şagirdləri üçün təşkil edilib. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi ilə icra olunan "Təhlükəsiz İnternet" layihəsi çərçivəsində təşkil olunan təlimdə Gimnaziyanın ibtidai sinif şagirdləri, valideyn və pedaqoji heyəti iştirak edib. Görüş zamanı şagirdlərə təhsilin inkişafında faydalı resurs mənbəyi olan internet mühitindəki zərərli məzmunlar barədə məlumat verilərək internetdən təhlükəsiz istifadəyə dair qaydalar izah olunub. Həmçinin şagirdlərə "Bakcell" və "ENGİNET" şirkətlərinin birgə hazırladıqları "Təhlükəsiz İnternet Paketləri" barədə geniş məlumat verilib.**

**Qeyd edək ki, «Bakcell» bir neçə il bundan əvvəl istifadəyə verilmiş və artıq 4G şəbəkəsində də fəaliyyət göstərən "Təhlükəsiz İnternet Paketləri" uşaqlar üçün internetdən istifadənin təhlükəsiz olmasını təmin edir. Bu internet paketləri və ENGİNET şirkətinin "İnternet Filtrasiya Xidməti" sayəsində «Bakcell» abunəçiləri öz uşaqlarının internetdən təhlükəsiz istifadəsini təmin edə və onları zərərli və istənilməyən məzmundan qorumaq imkanına malikdirlər.**

**"Təhlükəsiz İnternet" paketləri haqqında daha ətraflı məlumat https://www.bakcell.com/az/internet-safe-internet səhifəsində əks olunur.**

# SOCAR: "Vergilər Nazirliyinin SOCAR-da yoxlama aparması adi haldır"

**"Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Azərbaycanın ən böyük vergi ödəyicisi olan şirkətdir və şirkətdə Vergilər Nazirliyi tərəfindən mütəmadi cari yoxlamalar aparılır. Vergilər Nazirliyinin SOCAR-da yoxlama aparması adi haldır".**




Bu barədə SOCAR-dan "Report"a Vergilər Nazirliyinin yoxlamaları ilə bağlı verilən açıqlamada bildirilib.

Qeyd edilib ki, SOCAR dövlətin əsas vergi ödəyicisi olduğu üçün bu cür yoxlamalar daha əvvəl də tez-tez həyata keçirilib ki, bu da təbii haldır.

Məlumatda deyilir ki, yoxlamalar keçirməklə Vergilər Nazirliyi, sadəcə, özünün birbaşa funksiyasını icra edir: "SOCAR isə Vergilər Nazirliyinin yoxlamalarına qarşı daim açıq olub və olacaq. Bundan əlavə olaraq, SOCAR həm də ictimaiyyətə qarşı şəffaflığı təmin etmək üçün öz təşəbbüsü ilə dünyanın aparıcı audit şirkətlərindən biri olan "Ernst&Young" şirkəti ilə artıq uzun illərdir əməkdaşlıq edir və həmin şirkət hər il dərc edilən SOCAR-ın maliyyə hesabatlarını yoxlayır, təsdiqləyir və həmin obyektiv və neytral yoxlamadan sonra hesabatlar ictimaiyyətə təqdim olunur. Bununla da SOCAR öz hesabatlarının yüksək şəffaflığını və dəqiqliyini təmin edir".

## Ermənistanda da 10 nəfərdə "donuz qripi" tapıldı

**Ermənistanda 10 nəfərdə "donuz qripi" aşkar edilib. Bu barədə Ermənistan KİV-ləri yazır.**

Ermənistan səhiyyə naziri səlahiyyətlərini icra edən Liana Torosyan hadisəyə münasibət bildirərək onu bəsitləşdirməyə çalışıb: "Gəlin, buna "donuz qripi" deməyək. Hazırda Avropada olduğu kimi, Ermənistanda da adi H1N1 virusu yayılıb".

Ermənistan Səhiyyə Nazirliyi bildirib ki, yanvarın 8-də "donuz qripi" simptomları ilə 642 vətəndaş poliklinikaya müraciət edib, onlardan 597-nə tənəffüs yollarının iltihabı diaqnozu qoyulub.

Xatırladaq ki, Gürcüstanda A (H1N1) virusundan ("donuz qripi") ölənlərin sayı 11-ə çatıb.

## Türkiyədə PKK-nı təbliğ edən 32 nəfərin həbsinə qərar verildi

**Ankara Prokurorluğu terror təşkilatı PKK lehinə təbliğat aparan 32 nəfər şübhəli haqqında saxlanılma qərarı verib.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, onlardan 22-si artıq həbs olunub. Digər şübhəlilərin saxlanılması istiqamətində tədbirlər görülür.

## Avtomobil yolu keçən ər və arvadı vurdu

**Bakıda avtomobil yolu keçən ər və arvadı vurub. Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.**

Belə ki, yanvarın 7-də saat 12 radələrində Binəqədi rayonunun M.Ə.Rəsulzadə qəsəbəsi ərazisində Füzuli rayon sakini Ruslan Süleymanov idarə etdiyi "Mercedes" markalı (yük) avtomobillə yolu keçən qəsəbə sakinləri Cəlal İsmayılovu və onun arvadı Xanımı vurub. Nəticədə X.İsmayılova hadisə yerində ölüb.

Faktla bağlı Binəqədi Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır



## Azərbaycanda anadan olan uşaqlara ən çox verilən adlar hansılardır?

**2018-ci ildə Azərbaycanda yeni doğulan oğlan uşaqlarına daha çox Yusif, qız uşaqlarına isə Zəhra adı qoyulub. Ötən il Azərbaycanda 2 505 oğlana Yusif, 2 129 oğlana Əli, 1 929 oğlana Hüseyn, 1 569 oğlana Ömər, 1 381 oğlana Məhəmməd adı qoyulub.**

Ötən il oğlanlara çox qoyulan adlar sırasında Murad, Uğur, Ayxan, Tunar, İsmayıl və s. də olub.

2018-ci ildə 2 515 qıza Zəhra, 1 700 qıza Nuray, 1 408 qıza Fatimə, 1 604 qıza Zeynəb, 1 610 qıza Aylin, 1595 qıza Məryəm adları verilib.

Qızlara qoyulan adlar sırasında isə Mələk, Ayan, Dəniz, Mədinə, Xədicə, Leyla və s. də yer alıb. (Trend)

## Xaləddin İsgəndərova ağır itki

**Binəqədi Rayon İcra Hakimiyyətinin sabiq başçısı Xaləddin İsgəndərova ağır itki üz verib. Sabiq başçının atası Şahmar İsgəndərov yanvar ayının 8-də dünyasını dəyişib. Musavat.com-a bu haqda İsgəndərovlar ailəsinə yaxın mənbə məlumat verib.**

Ş.İsgəndərov uzun illər məsul vəzifələrdə çalışıb. O, 34 il Yevlax Taxıl Məhsulları Kombinatının direktoru olub. Mərhum ömrünün son illərini təqaüdçi kimi keçirib.

Şahmar İsgəndərov yanvar ayının 9-da doğulduğu Goranboy rayonunun Xanqərvənd kəndində torpağa tapşırılacaq. Yas mərasimi də kənddə veriləcək.

Allah rəhmət eləsin.

## Serbiyalı məşqçi AFFA-ya "yox" dedi

**21 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının baş məşqçisi vəzifəsinə namizəd olan Milan Obradoviç yığmamızın "sükanı arxası"na keçməyəcək.**

"Qafqazinfo" bildirir ki, bu barədə Serbiya millisinin çalışdırıcısı Mladen Krstayiç məlumat verib: "Milan Obradoviçə təklif gəlsə də, getməyəcək. O, bundan imtina etdi. Obradoviç Serbiya yığmasında çalışmağa davam edəcək. Onun dəyişdirilməsini tələb etmək lazım deyil".

Qeyd edək ki, 41 yaşlı mütəxəssis Serbiyanın U-19 yığmasını çalışdırır. AFFA bir neçə gün öncə Obradoviçin U-21 millimizə əsas namizədlərdən biri olduğunu açıqlamışdı.

## Nəqliyyat Agentliyindən sərnişinlərə "külək müraciəti"

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti yanvarın 9-da paytaxtda güclü külək olacağı ilə bağlı xəbərdarlıq edib.**

Bakı Nəqliyyat Agentliyindən (BNA) virtualaz.org-a verilən məlumata görə, sərnişinlərdən dayanacaq pavilyonlarında avtobus gözləyərkən diqqətli olmaları xahiş olunur.

Həmçinin nəqliyyat mübadilə mərkəzlərinin ərazisində və digər yerlərdə yolun hərəkət hissələrinə çıxmamağı, yalnız müəyyən edilmiş dayanacaq məntəqələrində avtobuslara minib-düşməyi, yolun qarşı tərəfinə keçərkən müəyyən olunan piyada keçidlərindən istifadə etmələri tövsiyə edilir.

Sürücülərə isə tövsiyə edilir ki, hərəkətdə olarkən yollarda müəyyən edilən sürət həddinə və yol nişanlarının tələblərinə riayət etsinlər.

## Bakıda 11 dərəcə isti olacaq

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, yanvarın 9-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı, gündüz yağışda qısamüddətli fasilə olacağı gözlənilir. Arabir güclənən cənub-qərb küləyinin axşam güclü şimal-qərb küləyi ilə əvəz olunacağı, gecəyə doğru arabir şiddətlənəcəyi gözlənilir.**

Havanın temperaturu gecə 5-7, gündüz 9-12, Bakıda gecə 5-7, gündüz 9-11 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi 754 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək. Nisbi rütubət 80-90 faiz olacaq.

Azərbaycanın rayonlarında yanvarın 9-da bəzi yerlərdə arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Qərb küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 0-5, yüksək dağlıq ərazilərdə 7-11 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti təşkil edəcək.

Tibbi-meteoroloji xəbərdarlığa görə, yanvarın 9-da Abşeron yarımadasında atmosfer təzyiqinin enməsi fonunda arabir güclənən gilavar küləyinin yanvarın 09-u axşamdan 10-u gündüzədək güclü xəzri küləyi ilə əvəz olunacağı gözlənilir. Meteoroloji amillərin qısa müddətə belə təzadlı dəyişkənliyi əksər əhali üçün əlverişsizdir.

YENİ MÜSAVAT
N 5 (7175) 9 yanvar 2019

**Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri, hüquq müdafiəçisi Sahib Məmmədov hazırda həbsdə olan blogger Mehman Hüseynovla görüşüb. Musavat.com xəbər verir ki, S.Məmmədov bu barədə sosial şəbəkədə məlumat verib. O, M.Hüseynovla çəkdirdiyi fotonu yayıb.**

# Mehman Hüseynov aclığı dayandırdı

## Hüquq müdafiəçiləri və atası həbsdəki bloggerlə görüşdü



Fotoda M.Hüseynovun görüntüsü normaldır. S.Məmmədov sosial şəbəkədə ona bu mövzu ilə bağlı ünvanlanan sualları cavablayaraq deyib ki, hələ 14 saylı təcridxanada olanda ona baş çəkməyi planlaşdırıb: "Təcridxanaya gətiriləndən sonra isə razılaşma olmalı idi. Bu gün (dünən-red.) onunla Qırmızı Xaç Komitəsi də görüşüb. Biz orada olanda onlarla görüşürdü. Ondan Əvvəl Ombudsman Aparatının nümayəndələri və atası ilə görüşüb. Sovqat qəbul edib. Bütün ərzaqlar kamerasında idi. Özü dedi ki, mədəsində qıcıq var deyə maye qidalar, qatıq, süd, yoqurt daha çox qəbul edir".

**Görüşdən sonra S.Məmmədov musavat.com-a özəl açıqlamalar verib:** "Mehmanın saxlanma şəraiti ilə tanış olduq. Bir çox kameralara baş çəkdik, həmçinin onun kamerasına da. Biz orada olanda Mehman yox idi. Qırmızı Xaç Komitəsinin nümayəndələri ilə görüşdə idi. Bu gün atası ilə də görüşüb. Atası sovqat gətiribmiş. Mehmanın qaldığı otaqda istilik var. 4 nəfərlik yerdə üç nəfər qalırlar. Kamera yoldaşları ehtiyatsızlıq üzündən cinayət törədən şəxslərdir. Qırmızı Xaç Komitəsinin nümayəndələri ilə görüşdən sonra onunla görüşdük. Saat yarım söhbət etdik. İcazə əsasında foto da çəkdirdik. Mehman Hüseynov qida qəbul edir. Ona qarşı pis rəftar olunub-olunmadığını soruşduq. Birmənalı şəkildə belə bir halın baş vermədiyini dedi. Sadəcə, onun narazılığı ona qarşı qaldırılmış cinayət işi ilə bağlıdır. Bu barədə vəkilinə də məlumat verib. Bizə də bu barədə fikirlərini dedi. Son sözü o oldu ki, azadlığa çıxmaq istəyirəm. Özünü təqsirsiz hesab edir. Bu da onun hüququdur. Deyir ki, martın 2-də cəza müddəti bitir və həmin gün azadlığa çıxmaq istəyir. Anasının məzarını ziyarət etmək istədiyini də bildirdi. Sağlamlığını bərpa etmək üçün çalışdığını söylədi. Bizim işimiz onun saxlanma şəraiti ilə maraqlanmaq, şəxsinə olan münasibəti öyrənmək idi. Üzərimizə düşənləri etdik. İstintaqın işinə qarışa bilmərik".

**Mehman Hüseynovun atası Rafiq Hüseynov yanvarın 8-də Bakı İstintaq Təcridxanasında oğlu ilə görüşüb. Rafiq Hüseynov Meydan TV-yə deyib ki, Mehman Hüseynovla bir saatdan çox söhbət ediblər:** "Mehman aclığı dayandırmayıb, halsız və zəif görünürdü. Mən ondan qida qəbul etməyini xahiş etdim. Ona meyvə və başqa yeməkləri aldım, xahiş etdim ki, hamısını yesin. Bilmirəm, mənə qulaq asacaq, ya yox".

**Rafiq Hüseynov bildirib ki, Mehman Hüseynov nəzarətçini döymədiyini söyləyib:** "Dedi ki, həmin zaman orada olmayıb, başqa yerdə çay içirmiş. İttihamlar uydurma və yalandır, Mehman belə dedi..."

**Rafiq Hüseynov müəssisə rəhbərliyinin onu yaxşı qarşıladığını bildirib:** "Müəssisə rəhbəri söz verdi ki, gələcəkdə bizim görüşlərimizə mane olmayacaq". Atası qeyd etdi ki, İstintaq Təcridxanasında Qırmızı Xaç Beynəlxalq Komitəsinin nümayəndələrini görüb.

"Mehman Hüseynov heç vaxt jurnalist fəaliyyəti göstərməyib, onun kimilərinin məqsədi yalnız Azərbaycan haqqında mənfi rəy yaratmaq olub". Bunu "Trend"ə Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov deyib. O qeyd edib ki, M.Hüseynov insanların şəxsi əmlakını çəkərək cəmiyyətə təqdim etməyə çalışır və bu yolla da onların mülkiyyət hüquqlarını pozurdu. "Mehman Hüseynov da cinayət törədib, eyni zamanda vəzifəsini yerinə yetirən zabitə qarşı zor tətbiq edib. Hər kəs qanun qarşısında birdir və törətdiyi cinayətə görə cəzasını almalıdır".

Yada salaq ki, Penitensiar Xidmətin mətbuat xidmətinin yaydığı məlumata əsasən, dekabrın 26-da 14 saylı cəzaçəkmə müəssisəsində insident yaşanıb. Məlumata görə, blogger müəssisənin rejim-nəzarət şöbəsinin böyük inspektoru, ədliyyə leytenantı Əli Ələddin oğlu Abdalovun qanuni tələblərinə tabe olmayaraq, ona qarşı zor tətbiq edib, fiziki müqavimət göstərərək sonuncuya bədən xəsarəti yetirib. Xidməti otaqda olan əşyaları dağıdaraq sındırıb.

Məlumatda bildirilir ki, Mehman Hüseynovun üzərində axtarış aparılan zaman saxlanılması qadağan olan 461 manat məbləğində pul aşkar edilərək götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin 317.2-ci maddəsi (Cəzaçəkmə müəssisəsinin və ya istintaq təcridxanasının əməkdaşına qarşı həyat və sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq etmə) ilə cinayət işi başlandığı bildirilir. Bu maddə 5 ildən 7 ilədək azadlıqdan məhrumetmə cəzasını nəzərdə tutur.

**Yeni cinayət işinə etiraz əlaməti olaraq Mehman Hüseynov aclıq elan edib.**

❑ **SEVİNC,**
**"Yeni Müsavat"**

# Abid Şərifovun "23 illik vəzifə" haqda dediklərinə reaksiyalar

**Fərəc Quliyev:** "Abid müəllimin işlərində xüsusi fərqləndiriləcək bir şey görməmişəm"
**Araz Əlizadə:** "Yaxşı olardı ki, Abid müəllim deyərdi ki, 23 ildə nələr edib"
**Elşən Musayev:** "Dövlət naminə lazım gəlsə, 23 il də çalışmaq olar, 53 il də..."

**Baş nazirin sabiq müavini Abid Şərifovun 79 yaşının tamam olması münasibətilə verdiyi müsahibə ciddi müzakirələrə səbəb olub. Sitat: "Hansı hökumətdə, hansı dövlətdə 23 il eyni vəzifəni icra etmək olar?! Hansı tarixdə bunu oxumusuz?! 79 yaşımda təqaüdə çıxmışam. 23 il sizə kiçik görünməsin".**



Bu fikirlər ilk baxışdan bir müxalifət liderinin, yaxud müxalifətçinin dediklərinə bənzəyir. Belə ki, müxalifət düşərgəsi hakimiyyəti ən çox iri ranqlı məmurları vəzifələrdə uzun illərdir təmsil olunmaqda, kadr dəyişiklikləri etməməkdə suçlayır.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** "Yeni Müsavat"a açıqlamasında rəhmətə gedənin, həbsxanada olanın və işdən çıxarılanın haqqında heç zaman danışmadığını bildirdi: "İnsanların uzun müddət vəzifədə təmsil olunmaları daha çox keyfiyyətlə bağlıdır. Daha çox vəzifədə çalışanın hansı işləri gördüyü önə çəkilir. İstənilən dövlət postuna seçkili sistemin tərəfdarıyam. Müxtəlif hakimiyyətlər dönəmində yaxşı icraçılar iş başında ola bilərlər. Açığı, Abid müəllimin işlərində xüsusi fərqləndiriləcək bir şey görməmişəm. Onun işdə qalmasına səbəb kimi xüsusi əhəmiyyətli, xüsusi keyfiyyətli nələrinsə olduğunu da düşünmürəm. Hesab edirəm ki, istənilən vəzifədə olmaq daha çox keçirilən rəy sorğularında, işin keyfiyyətində özünü göstərməlidir. Özünün işini qiymətləndirmək bir az qeyri-təvazökar məsələdir".

**Azərbaycan Sosial Demokrat Partiyasının sədri, deputat Araz Əlizadə bunları dedi:** "Məsələ onda deyil ki, kim neçə il hansı vəzifədə təmsil olunub. Mahiyyət ondan ibarətdir ki, vəzifədə olduğun müddətdə sən o vəzifəni necə icra etmisən. Yaxşı olardı ki, Abid müəllim deyərdi ki, 23 ildə nələr edib. Ondan danışsa daha yaxşı olardı".

**Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev məsələyə tamam başqa bir prizmadan yanaşır:** "Abid Şərifov məmur elitasının bu günə qədər gəlib-gedən ən maraqlı, özünəməxsus, hətta bəzən açıqlamaları ilə bəlli məqamlarda olay yaradan tipajlarından biri olub. Onu heç vaxt yaxından tanımamışam, heç həyatımda bir dəfə üzbəüz də gəlməmişəm. Odur ki, bu səbəbdən xarakterini təftiş etməyəcəm. Sadəcə, eşitdiyim qədəri ilə işini bilən adamdır, çalışdığı dövrlərdə də verilən tapşırıqları lazımi formada icra etməyi bacarıb, etimadı doğruldub. İndi kəçək 23 il məsələsinə... Çünki müxalif media, sosial şəbəkələr ən çox bu fikrin üzərində dayandı, onu qabartdı və verilən manşetlər də məlum başlıqla tirajlandı. Müəllimin söylədiyi fikirdə kontekst nə idi, məğz nə idi bilmirəm, amma müzakirə olunan mövzu barədə sırf öz fikrimi deyim: dövlət naminə lazım gəlsə, 23 il də çalışmaq olar, 53 il də. Bu nisbi məsələdir. Və baxmayaraq ki, mən özüm hələ 40-ı haqlamamış siyasətçiyəm, daha fərqli fikri müdafiə etməliyəm, amma yenə də düşüncəm odur ki, yaşlı insanların potensialından, onların administrativ, idarəçilik təcrübəsindən maksimum istifadə etmək lazımdır. Məgər gənclər həmişə sırf gəncdirlər, enerjilidirlər deyə özünü, göstərilən etimadı doğruldurlar? Deməzdim. 23 il qalınmayası tək yer varsa, o da müxalifətçilikdir. Bax bu artıq nisbi məsələ deyil. Çünki maksimum 10 il ərzində müxalif ideyalar məlum kəsimi iqtidara daşımırsa, həmin ideyalardan vaz keçmək, ətrafdakı insanları bədbəxt etməmək lazımdır. İdarəçiliyin, vəzifənin isə siyasətdən kifayət qədər ciddi komponent fərqləri var. Baxıram, Abid Şərifovun müsahibəsi ilə bağlı 25 ildir bir işə yaramayan, uğur qazanmayan hansısa müxalif siyasətçi lağlağı edir. Oysa, onlar gedib öz dərdlərini çəksinlər. Əsl qınanası adamlar onların özləridir. Üstəlik, mən bildiyim və eşitdiyim qədər kifayət qədər sayda məmur var ki, zamanında, müxtəlif dövrlərdə vəzifələrindən azad olunmaq istəyini ölkə rəhbərliyinə çatdırıblar. Amma onlara tövsiyə olunub ki, bir qədər də çalışıb dövlətə, yürüdülən siyasi xəttə öz töhfələrini versinlər. Yeni bəzən burada məmurun öz istəyi əsas komponent kimi deyil, həmin komponentlərdən biri kimi səciyyələnməlidir. Ən nəhayət: Abid Şərifov 79 yaşını haqlamış adamdır. Müsahibəni də tam başqa məqsədlə, təyinatla, ad günü münasibətilə verib. Lap tutaq dediyi hansısa ehtiyatsız söz var. Olsun da. Yaxşı olar, dəyərli jurnalistlər həm də paralel xətdə o səmtə köklənsinlər ki, adam vəzifədən çıxarkən cənab prezidentə öz minnətdarlığını bildirib, bundan sonra istirahət etmək, nəvələri, balaları, əzizləri ilə zaman keçirməyə daha çox imkan qazanacağı üçün sevincini dilə gətirib. Yəni dediyim odur ki, Abid müəllim artıq eks məmurdur. Keçmişdə nə olub-olub. Necə işləyib, necə işləməyib - bu artıq müzakirə predmeti deyil. Hazırda əsl müzakirə olunası məsələ bütün həyatı, işi və keçmişi bərbad olan Cahangir Hacıyev və onun kimilərdir. Ehtiyatsız formada hansısa fikri söyləyənlər deyil, şüurlu formada dövlətə və dövlətçiliyə zərbə vuranlar hədəf və qınaq obyekti olmalıdır. Abid müəllimi isə rahat buraxmaq lazımdır ki, bundan sonrakı həyatını ailəsi ilə bərabər, üstəlik, üzərində iş gərginliyi, media gərginliyi olmadan keçirsin".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Müxalifətin yeni hərəkatı və xalq amili

## Partiya sədri: "Azərbaycanın hər yerində hərəkata maraq, inam çox yüksək səviyyədədir"



**Ötən ilin sonlarında müxalifətdə müşahidə olunan hərəkətlənmənin böyük bir hərəkatın yaradılmasına hədəfləndiyi yeni ilin ilk günlərində verilən açıqlamalardan bəlli oldu. Müxalifətin zirvə toplantısının təşəbbüskarı və təşkilatçısı olan Azərbaycan Milliyyətçi Demokrat Partiyasının lideri İsgəndər Həmidov bəyan edib ki, böyük bir hərəkat yaradılır və 26 yanvarda hərəkat elan ediləcək. Hərəkatda 30-a yaxın partiya, çoxlu sayda ictimai təşkilatlar, tanınmış ictimai xadimlər olacaq.**

Hərəkatda xalq amilinə gəldikdə, ortaya sual çıxır ki, xalq da orada olacaqmı?

Müxalifətin zirvə toplantısında iştirak edən VİP-in sədri Əli Əliyev "Yeni Müsavat"a bildirdi ki, 25 dekabr tarixli Zirvə bir araya gəlmənin tam olmasa da, əsasən mümkünlüyünü aşkara çıxardı. Məsələnin ilkin tərəfi bu idi. Gələcəkdə əhatənin genişlənəcəyinə inam var: "Zaman göstərər. Əsas məsələ geniş xalq kütlələrinin münasibətidir. Xalq duymalıdır ki, önündə dəyişim istəyən siyasi platforma vardır. Öndəkilərə inamsızlıq bu gün mövcud passivliyin səbəblərindən biridir. İllər uzunu cəmiyyət həlledici məqamlarda liderlərin qeyri-adekvatlığını görüb. Bu dövrdə fədakarlığın yalnız sıravilərdən istənilməsi toplumu "soyudan" amillərdəndir. Odur ki, çox pis durumdayıq. Yaranmasına cəhd etdiyimiz hərəkat yaranmalı, neqativlərə son verməyi bacarmalıdır. Nail olub-olmayacağımızı bir qədər sonra görəcəyik. Əminəm ki, xalqı inandıra bilsək, xalqdan dəstək olacaq".

**Azadlıq Partiyasının sədri Əhməd Oruc isə bildirdi ki, ötən 25 ildə müxalifətin bütün birlik cəhdləri bağlı qapı arxasında olub və bu cəhdlərin qarşısı həmişə eyni liderlər tərəfindən alınıb, xalq da ona görə orada olmayıb:** "Prosesi dağıtdığına görə həmin qüvvələr hakimiyyət tərəfindən mükafatlandırılıb-mandatla, pulla, qrantla. Uzun illərlə hakimiyyətlə bazarlıq edənlərin əksəriyyəti xalq hərəkatına qoşulmayıb. Bundan başqa, ilk dəfədir ki, proses mətbuatın iştirakı ilə, şəffaf həyata keçiriliir. Bu gün Azərbaycanın hər yerində xalq hərəkatı müzakirə olunur. Hərəkata maraq, inam çox yüksək səviyyədədir. Hərəkat hələ təsis olunmayıb, amma 20-yədək rayonda yerlərdəki fəalların özü tərəfindən şöbələr yaratmaq haqda təəbbüslər qaldırılıb. Mən inanıram ki, xalqın dəstəyi kifayət qədərdir və olacaq. Hesab edirəm ki, xalq dəstəyi hər yandan olacaq, təzyiqlərə baxmayaraq prosesləri doğru yönəldə biləcəyik".

❑ **E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Deputatdan Əkrəm Əylisliyə sərt sözlər

## Fazil Mustafa: "Ziyalıların olmadığını deyir, guya özü o ziyalı, dissident obrazını götürə bildimi?.."

**Yazıçı Əkrəm Əylislinin Meydan TV-yə verdiyi müsahibə geniş müzakirələr doğurub. O, son günlər Azərbaycan gündəminin əsas müzakirə mövzusuna çevrilən, həbsdə olan gənc blogger Mehman Hüseynova qarşı əlavə maddələrlə cinayət işinin açılmasından, onun aclıq aksiyası keçirməsindən danışarkən ölkə ziyalılarının ünvanına sərt ifadələr səsləndirib.**



**Yazıçı üç il öncə şəxsinə qarşı açılan cinayət işini M.Hüseynov hadisəsi ilə müqayisə edib və o zaman da, indi də ziyalıların susduğunu bildirib. Sitat:** "Azərbaycanda ziyalı yoxdur, hansı ziyalıdan danışırsınız, mən bilmirəm? Mənim məsələmdə məlum oldu ki, ziyalı yoxdur. Mehmanın "vurduğu" yekəpər oğlanın şəkli yayılıb. Mənim də "vurduğum" elə həmin formada iri adam idi. Guya bunu vurub yerə yıxmışam. Məgər ziyalı dediklərin bunu görmür? Mehman Hüseynovu reportajlarından tanıyırıq, mənim isə Azərbaycan ədəbiyyatının qarşısında xidmətlərim olub, ana dilli ədəbiyyatın yaradıcılarından biriyəm, niyə özüm bu barədə danışmalıyam? Hansı ziyalı bu barədə danışdı? Rafiq Əliyevi deyirlər, bir dəfə ağzını açıb demədi ki, belə namussuzluq etməyin. Hələ də üstümdə cinayət işi var, amma heç kəsin vecinə deyil. Yazıçılar İttifaqında oturanları nəzərdə tutursansa, 30 ildir bu təşkilatı ancaq özləri üçün işlədib, kitablarını çap etdirirlər. Yaxud Bəstəkarlar, Rəssamlar ittifaqları, bunlar yalnız gözləyirlər, öz mənfəətlərinə bir balaca ziyan vurmaqdan ehtiyat edirlər. Onların Mehmanların başına bu oyunları açan dairələrdən umacaqları var axı. Bir gün orden, başqa bir gün mükafat istəyirlərsə, hansı ziyalıdan danışırsınız? Ziyalılıq ölüm ərəfəsindədir, nəfəs alır, ancaq can verir".



**Ə.Əylisinin bu açıqlamaları ziyalıların ciddi etirazları ilə qarşılanıb. Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa "Yeni Müsavat"da Ə.Əylisinin dediklərinə bu cür reaksiya sərgilədi:** "Ziyalı problemi ilə bağlı cəmiyyətdə müzakirələr çox gedir. Konkret olaraq hansı fikirlərin, ideyaların müdafiəsindən söhbət gedir? Hüquqi məsələləri müəyyən dərəcədə ziyalıların problemi kimi göstərmək yanlışdır. Ziyalılığın Azərbaycanda daha çox problemi cəhalətə qarşı mübarizədir. Çünki ölkəmizdə hüquqi məsələlər yanlış və ya doğru şəkildə nə zamansa çözülə bilər. Nöqsana yol verib kimisə qanunsuz həbs və ya azad edə bilərlər. Ziyalılıq əgər bu cür götürülürsə, Axundov modelində bir ziyalılığa diqqət etsək, onun hədəfləri ilə bugünkü Azərbaycan yazıçısının hədəfləri təqribən eyni deyil. Hətta Əkrəm Əylislinin belə hədəfi eyni deyil. Axundovun hədəfi daha qlobal idi. Söhbət yazıçı platformasındakı ziyalıdan gedirsə, bu gün ölkə yazıçılarının, ümumiyyətlə, ziyalılıq anlayışı çox dar və məhduddur. Ona görə də qlobal dəyərlər yaradan şəxsiyyətlərə çevrilmək imkanlarını itirdilər. Onsuz da Axundovun götürdüyü yükü kimsə götürə bilməzdi. Ola bilər ki, indi kimisə xaricə buraxmırlar, kiməsə məhdudiyyət var. Unutmayaq ki, Axundova hər zaman ölüm təhdidi var idi. Bunların qarşısında qlobal hədəflər seçdi və bu gün Azərbaycan cəmiyyətində cəhalətin qarşısında duran obraz kimi xatırlanır. Ölkəmizdə elə ziyalılar da var ki, bunların cəmiyyət həyatına baxışı bütövlükdə daha modern, yeni cəmiyyət qurmaqdan keçir. Konkret situasiyalarla bağlı ola bilsin ki, kimlərsə mövqe bildirməkdən çəkinir, yaxud aktivlik göstərmirlər. Amma nəzərə alaq ki, elə məsələlər olur, söz söyləmək çətin olur. Ümumiyyətlə, yazıçıların əsərlərinin kontekstdən çıxarılıb dəyərləndirilməsinin, kütlənin mühakiməsinə verilməsinin əleyhinəyəm. Əkrəm Əylislinin Azərbaycan ədəbiyyatında yaratdığı əsərlərin dəyərini bilirəm. Amma ortaya qoyduğu tezislərin müdafiə tərəfi olmadığı üçün bunu başqasından ummaq əvəzinə bir az da özündən ummalı idi. O heç öz tezisini belə müdafiə edə bilmədi. Yazıçının cəmiyyət, dövlət və hakimiyyət əleyhinə ən kəskin yazıları ola bilər. Yazıçı özü-özünü müdafiə edəcək xarakterə, şəxsiyyətə sahib olmalıdır. Əkrəm Əylisli televiziyada, mətbuatda özünü müdafiə edəcək mövqe qoymadısa, bunun günahını başqasında axtarmaq doğru deyil. Ziyalıların olmadığını deyir, guya özü ziyalı, dissident obrazını götürə bildimi? Təmənnası ancaq xırda Yazıçılar İttifaqının intriqa davalarından o tərəfə keçməyən mövqe ilə ədəbiyyatda gələcəyə yönəlik ziyalı mövqeyi ortaya qoymaq olmaz ki. Azərbaycanda ən böyük ziyalılardan biri, bəlkə də birincisi Xudu Məmmədovdur. O zaman Xudu Məmmədov kiminsə həbsinə, yaxud bir sıra məsələlərə münasibət bildirməyib. İndi onu ittiham etmək olar ki, kiminsə həbsinə və ya kiməsə qarşı cinayət işinin açılmasına nə üçün mövqe bildirməmisən? O, Azərbaycanda yeni bir düşüncə platformasının yaranması ilə böyük bir nəslin formalaşmasına xidmət etdi. Ziyalının əslində əsas funksiyalarından biri də budur. Bu baxımdan Əkrəm Əylislinin bu cür ziyalı qiymətləndirməsini doğru saymıram. Təbii ki, Azərbaycanda ziyalı modeli zəifdir. Türkiyə, Rusiya kimi ölkələrlə müqayisədə bu qənaətə gəlmək olar. Rafiq Əliyev dəyərli ziyalımızdır. O şəxsi davranışları ilə nələrəsə nümunə olmağı bacarır və bunu da edir. Ziyalının qarşısına hakimiyyətlə savaşmaq missiyasını qoymaq yanlışdır. Hakimiyyətlə müxalifətçilik etmək siyasətçilərin işidir. Bir zaman Əkrəm Əylislinin də mövqeyi ilə bağlı yazı yazmışdım ki, ziyalının Azərbaycan cəmiyyətində baş rolu yoxdur, epizodik rolu var. Ziyalını kimsə yanına çəkirsə, yanında tutursa, əslində bununla onun cəmiyyətə təsir imkanlarını azaldır. Ziyalı hakimiyyət və müxalifətlə təqribən bərabər səviyyədə olmalıdır. Eyni zamanda özü ayrıca bir hakimiyyət olmalıdır. Özünü kiminsə tezisinin müdafiəçisi kimi çıxış edərək, özünü bir tərəfin adamı kimi göstərməlidir. Müəyyən mənada bu tezislərlə razıyam ki, Azərbaycanda ziyalı modelini təşkil edə biləcək obrazların sayı çox deyil. Amma bütövlükdə ziyalının funksiyasının təhlilinin doğru olmadığı düşüncəsindəyəm".

**Deputat M.Hüseynov məsələsindən də söz açdı:** "Mehman Hüseynovla bağlı məsələ hüquqidir. Bu məsələnin hüquqi çərçivədə qondarma və ya doğru olduğu mübarizəsini vermək olar. Amma bunu ziyalının məsələsinə çevirmək olmaz. Bizdə hər kəs komfort şəkildə evində rahat oturub. Hakimiyyət uzaqbaşı xaricə çıxmağa icazə vermir. Xaricə çıxmamaqla bu komfort şəraitdən nəyi dəyişə bildin? İctimai düşüncədə faydalı olan nəyi dəyişdin? Heç bir şey dəyişə bilmirsənsə, bunun günahı başqalarında deyil. Bu potensiala sahib deyilsənsə, başqalarını niyə ittiham edirsən? Belə məsələlərdə ittiham edənlərin hər zaman haqlı görünmələri mövqeyindən çəkinməliyik. Kiminsə Axundov olması üçün bu gün daha komfort şərait var. Şəxsini müdafiə etmələri ilə bağlı ittihamlar səsləndirmək doğru deyil. Hər kəs özü-özünü ilk növbədə müdafiə etməlidir. Bunların özləri bir iş görmürlər, müdafiələri üçün heç nə etmirlər, sonra da deyirlər ki, məni niyə müdafiə etmədiniz. Hər kəs girdiyi davanın ağırlığını, yükünü özü düşünməlidir. Biri siyasi həbsə girirsə, siyasi motivli fəaliyyət göstərirsə, demək, o yükü götürə bilir ki, bunu edir. İnsan konkret xarakter nümayiş etdirməlidir ki, bu xarakterə görə insanlar onu müdafiə etsinlər. Bu cür gileyçi bir yanaşma doğru deyil. Mən demirəm ki, indi nöqsanlar, məhdudlaşdırmalar yoxdur. Yazıçı bütün məhdudları aşa biləcək gücə və xarakterə sahib olmalıdır. Beş ildə Əkrəm Əylisli parlamentdə oldu. Bir dəfə gözəl ədəbiyyat mühazirəsi çıxışı edərdi. Göstərərdi ki, ədəbiyyatın problemi nədir. Bunu desəydin, nəyi pis idi? Niyə bunları etmədin? Məni müdafiə etmədilərsə, ziyalı yoxdur düşüncəsi ilə çıxış etmək doğru deyil".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Apreldə növbədənkənar parlament seçkiləri keçiriləcəyi xəbəri

## Milli Məclis seçkilərinin ertələnməsini zəruri edən şərtlər; yazda "siyasi hərarət" yüksələcək

**Bu ilin aprel ayında Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Bu barədə musavat.com-a məlumatlı mənbələrdən informasiya daxil olub. Onu da qeyd edək ki, aprel ayında seçkilərin keçiriləcəyinin gözlənildiyi barədə "Yeni Müsavat"ın 5 yanvar tarixli sayında informasiya vermişdik. Xəbərdə deyilirdi ki, növbədənkənar prezident seçkiləri kimi, bu seçkilər də seçki kampaniyasına az qalmış təyin ediləbilər.**

Habelə daha öncələr də belə iddialar səslənirdi. Milli Məclisin üzvü Zahid Orucun, eləcə də bəzi tanınmış politoloqların statuslarında bundan bəhs olunurdu.

Xatırladılırdı ki, ötən il bu vaxtlar prezident seçkiləri də çoxlarının gözləmədiyi halda vaxtından 6 ay əvvəl, aprel ayında keçirildi.

Bunun hansı siyasi zərurətdən irəli gəlməsi barədə ictimaiyyətə təfərrüatı ilə məlumat verilmişdi. Güman ki, parlament seçkilərinin də eyni səbəblərdən vaxtından əvvəl keçirilməsi nəzərə tutulur.

Hələ ki hakimiyyət düşərgəsindən növbədənkənar parlament seçkilərinin olacağı barədə xəbərlərə hər hansı şəkildə reaksiya yoxdur. Lakin nəzərə alsaq ki, keçən ilin bu vaxtlarında da yaz aylarında növbədənkənar prezident seçkisinin gözlənildiyi barədə xəbərlər yayılanda rəsmi dairələrdən heç bir təsdiq xarakterli mövqe bildirilmirdi. Buna baxmayaraq, yayılan xəbərlər doğruldu-aprel ayında növbədənkənar prezident seçkisi keçirildi. Bu dəfə də belə olacağı istisna deyil...

Yanvarın 8-də musavat.com-a daxil olan daha bir mötəbər mənbənin məlumatı üç gün öncə yaydığımız xəbərin rəsmi təsdiqlənmək ərəfəsində olduğunu göstərir.

Hazırda fəaliyyətdə olan V çağırış Milli Məclisə seçkilər 2015-ci ilin noyabrında keçirilib, hazırkı Milli Məclis 3 ildən artıqdır fəaliyyət göstərir. Deputatların səlahiyyət müddəti 5 ildir. Növbədənkənar seçkilər olmayacağı halda ölkədə növbəti parlament seçkiləri 2020-ci ildə keçirilməlidir. Əgər apreldə parlament seçkiləri keçiriləcəksə, bu, seçkilərin il yarım önə çəkilməsi demək olacaq. Eyni zamanda bu, Azərbaycanın müstəqillik əldə etdikdən indiyə qədər ilk növbədənkənar parlament seçkiləri kimi tarixə düşəcək.

Növbədənkənar parlament seçkilərinin keçirilməsinin lazım olub-olmadığı məsələsinə gəlincə, siyasətçilər arasında bu məsələdə yekdil rəy yoxdur. Məsələn, ADP sədri Sərdar Cəlaloğlu hesab edir ki, siyasi deyil, hüquqi baxımdan yeni parlament seçkiləri keçirilməlidir. Çünki artıq xeyli vaxtdır yeni konstitusiya qəbul olunub, parlamentin səlahiyyətləri dəyişdirilib.

Deputat Fazil Mustafa isə hesab edir ki, konstitusiya dəyişikliyi və növbədənkənar prezident seçkilərinin keçirilməsi isə parlamentin buraxılması və yeni parlament seçkiləri keçirilməsi zərurətini yaratmır. Amma siyasi məqsədəuyğunluq olarsa, seçki vaxtından qabaq da keçirilə bilər.

Məsələyə digər bir kontekstdən yanaşdıqda, parlament seçkilərinin 2019-da keçirilməsinin hüquqi bir məntiqi də ortaya çıxır. Belə ki, son konstitusiya dəyişikliyinə görə, prezident seçkiləri 7 ildən bir keçiriləcək. Sonuncu - növbədənkənar prezident seçkilərinin 2018-ci ildə keçirildiyini nəzərə alsaq, deməli, növbəti prezident seçkiləri 2025-ci ildə keçirilməlidir. Əgər parlament seçkiləri növbədənkənar elan edilməyib, 2020-ci ildə keçirilərsə, bu o deməkdir ki, növbəti Milli Məclis seçkiləri də 2025-ci ildə - prezident seçkiləri ilə eyni ildə baş tutmalıdır. Bu isə anormal situasiya yaradır, bir ildə həm prezident, həm də parlament seçkilərinin keçirilməsinə praktikada rast gəlinmir və bir sıra səbəblərdən (siyasi, strukturların iş fəaliyyəti baxımdan) doğru hesab olunmur. Bu vəziyyətin aradan qaldırılması üçün optimal yol kimi, parlament seçkilərinin ertələnməsi, 2019-da keçirilməsi uyğun variant hesab olunur.

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Partiyalar Müsavatın mitinq qərarından danışdılar

## 12 yanvara təyin edilən aksiyaya hansı partiyalar dəstək verə bilər?

**Müsavat Partiyası "Siyasi məhbuslara azadlıq" şüarı ilə yanvarın 12-nə mitinq təyin edib. Mitinqə hazırlıq işlərinin getdiyi bildirilir. Müsavatın təyin etdiyi mitinqdə kənar hansı partiyaların iştirak edib-etməyəcəyinə gəlincə, araşdırmamız nəticəsində bəlli oldu ki, mitinqə dəstək vermək istəyənlər də, iştirak etmək fikrində olmayanlar da var.**

KXCP İdarə Heyətinin üzvü Xəzər Teyyublu "Yeni Müsavat"a bildirdi ki, siyasi məhbuslara dəstək və onların azadlığa çıxması üçün keçirilən aksiyalarda iştirak edilməlidir: "Bu istiqamətdə mübarizə aparılır. Onların həbsdə qalması dövlətimizə, demokratiyaya zərbədir. Müsavat Partiyasının mitinq təşəbbüsü bu baxımdan təqdir olunmalıdır. Onların da təkbaşına deyil, digər siyasi təşkilatlarla bir yerdə mitinq hazırlıqları aparması kütləvilik və cəlbedicilik sarıdan effektli olar. İnanıram ki, Müsavatın mitinq keçirmək müraciətinə hamı dəstək verəcək".

**AMİP katibi Əli Orucov isə dedi ki, AMIP olaraq həmişə qanunların aliliyinin və müstəqil məhkəmələrin tərəfdarıdırlar. Eyni zamanda siyasi baxışlarına, inanclarına, əqidəsinə və s. hallara görə təqib və təzyiqlərə məruz qalmasına, həbs edilməsinə qarşı olublar:** "Təəssüflər olsun ki, Azərbaycanda siyasi məhbus məsələsi acı bağırsaq kimi uzanmaqdadır. Müsavat Partiyasının siyasi məhbuslara azadlıq tələbi ilə keçirəcəyi mitinqə çətin ki, hakimiyyət imkan yaratsın və icazə versin. Belə mövzulara iqtidar həssasdır. Lakin əgər qeyri-adi hadisə baş verib, mitinqin keçirilməsinə razılıq verilərsə, biz fərdi olaraq qatılacağıq. Ona görə fərdi ki, əvvəla, mitinqlə bağlı AMİP-in partiya kimi iştirakı məsələsi kollegial orqanlarda müzakirə edilib qərar verilməlidir. Lakin insanların sərbəst toplaşmaq hüququndan istifadəsində tam sərbəstlik var. Könül istər ki, siyasi məhbus məsələsi Azərbaycanın gündəmindən və ictimai-siyasi problemlərindən birdəfəlik çıxsın".

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli mitinqə partiya olaraq qatılmaq qərarları yoxdur. Fərdi şəkildə iştirak edib-etməməyi isə partiya üzvlərinin öz ixtiyarına buraxacaqlar.**

**❑ E.SEYİDAĞA, "Yeni Müsavat"**

# Qədir-qiymət bilinməyən arenada fədakarlıq tələbi



**Xalid KAZIMLI**

**İndiki gənclərin, xüsusilə də hazırda sosial şəbəkədə əlinə "NIQTAS" hərfləri həkk olunmuş möhür götürüb yetənin alnına yapışdıran fəalların yaşı düşməz, uzun illər öncəydi, yazıçı-şair, deputat Sabir Rüstəmxanlı bir gün öncə təltif olunduğu "Şöhrət" ordenindən imtina etmişdi.**

"Uzun illər öncəydi" deyəndə, konkret olaraq mərhum prezident Heydər Əliyevin dövrüydü və Sabir Rüstəmxanlı, başqalarının sino getdiyi, röyalarında gördüyü ali dövlət mükafatını qəbul etməmişdi.

O zaman üçün bu, əslində böyük fədakarlıq idi. Həm də çox gözlənilməz addımıydı. Çünki ondan əvvəl nəinki "Şöhrət" ordenindən, heç "Tərəqqi" medalından belə imtina edən olmamışdı. Gərək ki, heç sonralar da olmadı.

O vaxt media bu barədə bir az yazdı, pozdu, söhbət unuduldu, getdi. İndinin özündə heç geniş xalq kütləsini demirəm, ictimai-siyasi fəallar arasında sorğu keçirək, görək, belə bir fakt haqqında kimin bilgisi var? Məlum olacaq ki, 100-də 95 gənc bu hadisə barədə ilk dəfə xəbər tutur.

Amma nə oldu? O fədakar addımın nəyəsə bir xeyri oldumu? Olmadı. Bu tarixi imtina ictimai-siyasi arenada öz qiymətini aldımı? Almadı.

Bəs indi nə görürük? Onu müşahidə edirik ki, Sabir Rüstəmxanlıya qarşı sosial şəbəkədə kampaniya başlanıb. Onun telefonla "açıqlama vermək imkanında deyiləm" fikrini tirajlayaraq, personasını qaralayırdılar. Yaxşı ki, S.Rüstəmxanlı vaxtında çıxıb daha geniş açıqlama ilə kampaniyanı neytrallaşdırdı.

Yenə uzun illər öncəydi, səhv etmirəmsə, 2001-ci il. Ölkədə boş qalan dairələrdə təkrar seçkilər keçirildi. Yenicə (2000-ci ilin noyabr ayında) parlament seçkiləri keçirilmişdi və həmişə olduğu kimi, müxalifət qüvvələrindən çox az adam parlamentdə mandat qazanmışdı. AXCP-dən olan məlum qrup deputat mandatı əldə etmişdi. Amma parlamentə seçilmək iddiasında olan və kifayət qədər seçici səsi qazananlar parlamentə düşə bilməmişdi. Əsasən də Müsavat Partiyası qazandığı yerlərdən zorla məhrum edilmişdi.

Təkrar seçkilərdə mandat alanların arasında bir siyasətçi, partiya sədri vardı - Mirmahmud Mirəlioğlu. O vaxt necə bir kampaniya başlanıldısa, halal mandat qazanaraq parlament üzvü seçilmiş Mirmahmud Mirəlioğlu fədakarlıq nümunəsi göstərdi, qazandığı mandatdan imtina etdi.

Bu da gözlənilməz addım idi. Ondan qabaq heç kəs mandatdan imtina etməmişdi. Bəzi deputatların mandatı əllərindən vaxtından əvvəl alınmışdı, amma könüllü şəkildə "mən deputat seçilsəm də, Milli Məclis üzvü olmaqdan imtina edirəm" deyən olmamışdı (sonradan, 2005-ci ildə Lalə Şövkət də bənzər addım atdı).

Amma bu addımın nəyəsə xeyri oldumu? Olmadı. Bu tarixi imtina ictimai-siyasi arenada lazımi qədər qiymətləndirildimi? Qiymətləndirilmədi.

Əksinə, o vaxt o fədakarlığa görə Mirmahmud Mirəlioğluna adi bir təşəkkür etməyən, özü olmayanda arxasınca xoş söz deməyən bir çoxları ara sakitləşəndən sonra KXCP sədrini "ciddi siyasətçi deyil", "cəddinə güvənən seyid" adlandırdılar, ünvanına tənqid yağdırmaqda, onunla mənasız intriqa aparmaqda davam etdilər.

2010-cu ildə AXP sədri Pənah Hüseyn öz gücünə, eloğlularının səsi və dirəşməsi hesabına mandat almış, parlament üzvü seçilmişdi. Daima ictimai nəqliyyatda gəzən Pənah Hüseyn MM üzvü olanda da metro ilə, Arzu Səmədbəylinin zarafatla dediyi kimi, "300 minlik maşınla", yəni avtobusla gəzirdi. Düzdür, and içənlər vardı ki, o, hakimiyyətdən kifayət qədər pul-para alıb, amma ortada bir şey yox idi. P.Hüseynin hakimiyyətdən və kimsədən heç nə almadığı, ummadığı bir gün sübut olundu. Başqa deputatlar kimi, ona da dövlət tərəfindən mənzil təklif olundu, hamı dövlətin hədiyyəsini aldı, yeganə olaraq Pənah Hüseyn həmin mənzildən imtina etdi.

Bu barədə yazılmadı, bilinmədi. Təbii ki, indiki fəallardan soruşsaq, yenə çox adamın bu hadisədən xəbəri yoxdur.

Bəs bu imtinanın nəyəsə xeyri oldumu? Olmadı. O fədakarlıq haqqında bilənlər Pənah Hüseynə layiq olduğu qiyməti verdilərmi? Vermədilər. Əksinə, hər fürsətdə onu ləkələməyə, pisləməyə çalışdılar və çalışırlar.

Uzun sözün qısası, daima başqalarından fədakarlıq, prinsipiallıq tələb edənlər, siz, fədakarların, prinsipiallıq göstərənlərin qədrini nə vaxt biləcəksinizsə, o vaxt da onların sayı artmağa başlayacaq.

YENİ MÜSAVAT
N 5 (7175) 9 yanvar 2019

# Bloggerlər jurnalistdir, yoxsa... iki rəy

**Son zamanlar Azərbaycanda bloggerlərin sayı sürətlə artmaqdadır. Özlərini blogger, müstəqil jurnalist adlandıran şəxslər daha çox cəmiyyətdə baş verən nöqsanlar, baş verən hadisələr, eyni zamanda texnologiya sahəsindəki yeniliklər barəsində yazırlar.**

Bloggerlər həmçinin ölkədəki ictimai-siyasi hadisələr barəsində də fikirlərini bildirib, reportaj xarakterli materiallar hazırlayırlar. Bloggerliyi yeni jurnalistikanın bir qolu kimi adlandıranlar olsa da, əksər şəxslər bildirirlər ki, blogger heç də jurnalist sayılmır. Bu sahə Azərbaycanda yeni yaransa da, dünyada daha öncədən mövcuddur . Son zamanlar dünyada "youtube" üzərindən də videobloggerlik edən şəxslər də var ki, onlar bu işlə böyük məbləğdə vəsaitlər də qazana bilirlər. Videobloggerlər ya hər hansı bir hadisəni çəkirlər, ya da hadisə barəsində şərh verib, özlərini videoya çəkib, qeyd etdiyimiz şəbəkəyə yerləşdirirlər. Onu da qeyd edək ki, blog sözü ingiliscə "web " və "log " sözlərinin birləşməsindən yaranıb və zamanla "blog " halını alıb. Mənası isə "web gündəliyi ", "onlayn gündəlik " deməkdir. Bu məntiqlə istənilən peşə sahibi də özünə blog açıb, peşəsi ilə bağlı məlumatları paylaşa bilər. Azərbaycanda son dövrlər həkimlərin, stomatoloqların blog yaratmaları geniş yayılıb. Çox oxunan bloglarda reklamlar da görmək mümkündür. Yəni artıq dünyada olduğu kimi Azərbaycanda da blog yazısı yazaraq, pul qazananlar mövcuddur...

Bəs bloggeri jurnalist saymaq olarmı?

Məsələ ilə bağlı media ekspertlərinin fikirlərini aldıq.





## Qulu Məhərrəmli: "Blogger bir nəfərin döyüşüdür"
## Mehman Əliyev: "Bloggerlərə ona görə qeyri-peşəkar deyirəm ki..."

**"Yeni Müsavat"a danışan media eksperti, telejurnalist Qulu Məhərrəmli bildirib ki, internet mediası meydana çıxandan bəri bloggerliklə bağlı mübahisələr var:**

"UNESKO-nun sənədlərində bloggerliyin konkret olaraq tərifi verilib. Bildirilib ki, blogger dövrün, yaşadığı cəmiyyətin ictimai-siyasi hadisələrindən bəhs edirsə, prosesləri təhlil edirsə, bu, birmənalı şəkildə jurnalist fəaliyyətidir. Əgər blogger sentimental şeylər yazırsa, bədii materiallarla işləyirsə, onun yazdıqları daha çox təxəyyülə əsaslanırsa, bu fəaliyyət jurnalistika sayılmır. Bu gün Azərbaycanda blogger fəaliyyəti ilə məşğul olanların əksəriyyətini jurnalist hesab edə bilirik. Çünki onlar cəmiyyətdə, ətrafımızda baş verən hadisələrlə bağlı bu və ya başqa formada təhlil, şərh yazırlar. Əlbəttə ki, belə bir fəaliyyət də jurnalistika fəaliyyəti hesab edilir. Düşünmürəm ki, bu fəaliyyət nə zamansa saytları, onlayn medianı üstələyə, sıradan çıxara bilər. Bunlar arasında rəqabətdən söhbət getmir. Blogger, sadəcə olaraq, bir nəfərin döyüşüdür. O, heç zaman geniş mənada onlayn mediaya təsir edə, onu sıradan çıxara bilməz. Sadəcə olaraq, bir çox hallarda blogger yazılar, saytlar, ənənəvi media üçün məlumat mənbəyi ola bilir. Deyə bilərik ki, əslində bloggerlik jurnalistika ilə publisistikanın sərhədində olan bir yaradıcılıq hadisəsidir. Hər kəs də bloggerlik fəaliyyəti ilə məşğul olub, diqqəti cəlb edə bilmir. Bəzi şəxslər yalnız bu fəaliyyətlə önə gedib, tanına bilirlər. Bloggerin yanaşmaları fərdi, subyektiv baxışdır və kriteriyaları gözləməyə bilir. Blog səhifələr həm də ona görə saytları sıradan çıxara bilməz ki, buna onların həm yaradıcı, həm də intellektual gücü çatmaz".

**"Turan" informasiya agentliyinin rəhbəri, media eksperti Mehman Əliyev isə söyləyib ki, artıq ənənəvi media anlayışı keçmişə qovuşur:** "Bir zamanlar biz kütləvi informasiya vasitələri deyirdik. Bura media aid idi. İndi isə kütləvi kommunikasiya vasitələri deyirik. Bura isə müxtəlif informasiya vasitələri, saytlar, sosial şəbəkələr də daxildir. Əslində informasiya yazılarının arasında kifayət qədər jurnalistləri üstələyən xalq jurnalistikası mövcuddur və bu, getdikcə güclənir. Bu baxımdan qeyri-peşəkarların yerini danmaq olmaz. Peşəkar jurnalistlər bu peşə ilə məşğuldurlar, onlar buradan pul qazanırlar və işləri budur. Bloggerlərə ona görə qeyri-peşəkar deyirəm ki, bu insanlar informasiya ilə sadəcə olaraq, özfəaliyyət dərnəyi kimi məşğul olurlar. Yəni hər kəs özünü ifadə etmək üçün müxtəlif sosial şəbəkələrdən də istifadə edə bilər. Əvvəllər bu cür imkanlar mövcud deyildi. Səni ya qəzetə buraxırdılar, yaxud da yazılarını vermirdilər. Eləcə də əvvəlki zamanda televiziyalara da çıxmaq eyni qayda ilə həyata keçirilirdi. Ya səni televiziyaya buraxırdılar, ya da buraxmırdılar. İndi isə sən formatı özün seçə bilirsən. Yəni harada, nə və necə danışacağını özün müəyyənləşdirirsən. Bu tendensiya günbəgün genişlənir. Onu da deyim ki, hadisələr haqqında ilk məlumatları da elə çox zaman qeyri-peşəkarlar yayırlar. Adi bir vətəndaş hadisə yerində olur və tez sosial şəbəkə, yaxud da digər vasitələrlə insanlara məlumat, foto, video ötürə bilir. Yəni tamam başqa bir duruma gəlmişik. Ona görə də bu gün müzakirə etmək ki, blogger jurnalistdir, ya yox, bu, indiki zamana uyğun deyil. Biz məsələni 7-8 il bundan qabaq müzakirə edə bilərdik. İndi isə artıq biz informasiya məkanının daşıyıcıları barəsində danışa bilərik. Bu barədə danışarsaq, yerinə düşər. Eləcə də mövcud prosesi necə qurmaq və tənzimləmək də böyük bir məsələdir. Açığını deyim ki, hələ ki bizim hakimiyyət buna hazır deyil".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Pensiyalarda artım fevralda olacaq

## 220 manat olanlar üçün artım 6 manat 60 qəpik, 250 manat olanlar üçün artım 7 manat 50 qəpik olacaq

**Hər ilin sonu, yeni ilin əvvəlində Azərbaycanda pensiya alan yüz minlərlə insan həyəcanla aldıqları məbləğin nə qədər artacağını gözləyirlər. Belə ki, ölkədə 2006-cı il yanvarın 1-dən tətbiq edilən sığorta-pensiya sistemi əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsini nəzərdə tuturdu.**

Bu zaman indeksləşmə istehlak qiymətləri indeksinin səviyyəsinə uyğun aparılırdı. Lakin 2018-ci ildən bütün pensiya məbləği indeksləşdirilir, amma bu zaman əsas kimi inflyasiya səviyyəsi deyil, ölkə üzrə orta aylıq nominal əmək haqqının artım səviyyəsi götürülür. Məsələn, ötən il prezidentin imzaladığı sərəncama əsasən əmək pensiyalarının ümumi məbləği 2017-ci ildə ölkədə orta aylıq nominal əmək haqqının illik artım tempinə uyğun olaraq 5,7 faiz artırılıb. Sərəncam pensiyaçıların 1 milyon 236 min nəfərinə və ya 94 faizinə şamil olunub.



Bu il pensiya məbləğlərində gözlənilən artım fevral ayından baş tutacaq. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin verdiyi açıqlamaya görə, Dövlət Statistika Komitəsi müvafiq rəqəmləri təqdim etdikdən sonra artım aparılacaq. Pensiyalarda gözlənilən indeksasiya ilə bağlı **iqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu** maraqlı bir hesablama aparıb. Onun sözlərinə görə, hesablamalar göstərir ki, aylıq artımla pensiyaçılar 1 ay ərzində 300-500 qram yerli mal əti və ya 200-300 qram xarici Zelandiya mənşəli kərə yağı ala biləcəklər: "Dövlət Statistika Komitəsindən gözlənilən rəqəm nominal əmək haqqının orta illik artım tempi göstəricisidir. Belə ki, 2018-ci ilin yanvar-oktyabr aylarında nominal əmək haqqının orta illik artım tempi 2,8 faiz olub. Çox böyük ehtimalla, ilin sonuna bu rəqəm 3 faizi ötməyəcək. Belə olan halda da əmək pensiyaları ötənilki nominal əmək haqqının orta artım tempinə uyğun indeksləşdiriləcək. Yəni səxavətli hakimiyyətin sosial qayğısı ilə aylıq pensiyası 130 manat olanlar üçün artım 3 manat 90 qəpik,150 manat olanlar üçün artım 4 manat 50 qəpik, 180 manat olanlar üçün artım 5 manat 40 qəpik, 200 manat olanlar üçün artım 6 manat, 220 manat olanlar üçün artım 6 manat 60 qəpik, 250 manat olanlar üçün artım 7 manat 50 qəpik olacaq". İqtisadçı-alim deyir ki, hər bir pensiyaçı aldığı pensiyanın üzərinə orta aylıq nominal əmək haqqındakı artım faizini - yəni 3 faizi əlavə edərək bu aydan alacağı pensiyanın yeni məbləğini hesablaya bilər: "Məlumat üçün qeyd edim ki, 2019-cu ildə Azərbaycanda orta aylıq pensiyanın 240 manat və ya 141 dollar olacağı gözlənilir. Müqayisə üçün bildirim ki, ötən il orta aylıq pensiya Qazaxıstanda 240 dollar, Rusiyada 209 dollar, Belarusda 181 dollar, Gürcüstanda 145 dollar olub".

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən "Yeni Müsavat"a verilən məlumata görə, bu ay ərzində əmək pensiyalarının indeksləşdiriləcək artırılması təmin ediləcək:** "Belə ki, "Əmək pensiyaları haqqında" Qanunda əmək pensiyalarının ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əmək haqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilməsi nəzərdə tutulur. İndeksləşdirmə Dövlət Statistika Komitəsindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə yanvar ayı ərzində təqdim olunacaq rəsmi məlumatda 2018-ci il üzrə ölkəmizdə orta aylıq nominal əmək haqqının artım tempi göstəricisi əsas götürülməklə həyata keçiriləcək. Pensiyaların 2019-cu ilin 1 yanvar tarixinə olan məbləği həmin göstəriciyə uyğun şəkildə və cari ilin əvvəlindən indeksləşdiriləcək artırılacaq".

**Nazirlikdən onu da bildiriblər ki, ilkin məlumata əsasən, 2019-cu ilin 1 yanvar tarixinə ölkədə pensiyaçıların sayı 1,3 milyon nəfər təşkil edir ki, indeksləşdirmə əsasında pensiyalarda artım onlardan təxminən 94 faizinə şamil olunacaq:** "Qalan pensiyaçılara isə "Əmək pensiyaları haqqında" Qanunun 20-ci maddəsindəki qruplar, yəni dövlət qulluqçuları, hərbi qulluqçular, xüsusi rütbəli şəxslər, millət vəkilləri və s. aiddir ki, onların pensiyalarının artımı qanunvericilikdə nəzərdə tutulan başqa mexanizm əsasında həyata keçirilir. "Əmək pensiyaları haqqında" Qanuna uyğun olaraq, bu ay ərzində pensiyalarla birgə, sığortaolunanların fərdi hesablarındakı pensiya kapitallarının da ötən il üzrə orta aylıq nominal əmək haqqının illik artım tempinə uyğun şəkildə indeksləşdiriləcək artırılması gözlənilir".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

**Ermənistan parlamenti yeni tərkibdə ilk iclasını yanvarın 14-də keçirəcək. Artıq baş nazir Nikol Paşinyan başda olmaqla bir sıra mandat sahibləri yeni hökumətdə yer almağı hədəflədikləri üçün parlamentar funksiyasını icra etməkdən rəsmən imtina ediblər.**



# Metyu Brayzanın Qarabağ nikbinliyi - informasiya, yoxsa...

## Keçmiş həmsədr Ermənistanın yeni hökumətinin güzəştli addım atacağını güman edir; **Elxan Şahinoğlu:** "Ermənistan hakimiyyətində kim olursa-olsun öz xoşu ilə torpaqlarımızı azad etməyəcək"

Azərbaycan vətəndaşı olaraq bizi daha çox maraqlandıran işğalçı ölkədə hökumətin qurulmasından, rəsmi qurumların aktiv fəaliyyətə başlamasından sonra Qarabağ məsələsi ilə bağlı hansı mövqenin sərgilənməsidir.

Dağlıq Qarabağ probleminin nizama salınması üzrə danışıqların yaxın gələcəkdə yenilənməsi perspektivini bir çox analitiklər daha çox ehtimal edilir. Hər halda, beynəlxalq vasitəçilər son zamanlar kifayət qədər optimist bəyanatlar verirlər.

ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri Metyu Brayzanın son açıqlaması da diqqət çəkir. Brayza da Qarabağ münaqişəsinin həllinə müsbət yanaşmağa meyllidir. O, virtualaz.org-a açıqlamasında qeyd edib ki, parlament seçkilərindəki siyasi qələbəsindən sonra Paşinyan üçün manevr meydanı yaranıb. "Mən Paşinyanın Qarabağ probleminin həllində bir sıra riskli addımlar ata biləcəyini istisna etmirəm. Mən onunla şəxsən tanış deyiləm və deyə bilmərəm ki, o, konkret hansı addımlara gedə bilər. Bu, daha çox Paşinyan və prezident Əliyevin şəxsi münasibətlərinin necə olacağından və bir-birilərinə nə qədər güvənəcəklərindən asılıdır. Ona görə hələlik nəyi isə konkretləşdirmək çətindir. Amma bir şeyi dəqiq bilirəm: əgər prezidentlər Köçəryan və Sərkisyanın Qarabağ liderləri qarşısında öhdəlikləri var idisə, Paşinyanın belə öhdəliyi yoxdur və bu baxımdan o daha azaddır", - deyə Brayza vurğulayıb.

M.Brayza həmsədr olduğu dövrdə səsləndirdiyi bəyanatlarla diqqət çəkib. Onun hələ səfir vəzifəsinə təyin olunarkən ermənilərin təzyiqləri ilə üzləşməsi də unudulmayıb. Üstəlik, Azərbaycan hakimiyyəti ilə yaxın münasibətləri olan diplomatın ümidverici bəyanatlar səsləndirməsi mümkündür ki, ciddi məlumatlara əsaslansın. Hər halda, Azərbaycan Paşinyan hökumətinə seçkini rahat keçirmək üçün elə-belə şans tanımazdı. Mümkündür ki, Paşinyan Düşənbə görüşündə, yaxud ondan sonra hansısa öhdəlik götürsün.

**ABŞ Dövlət Departamentinin keçmiş məsləhətçisi, Vaşinqton İnstitutunun professoru, məşhur politoloq Pol Qobl da bu günlərdə ilginc fikirlər söyləyib. "Moskva əvəzini Azərbaycandan ala biləcəyinə əmin olanda Ermənistanı satacaq"-politoloq deyib. Qobl iddia edir ki, Rusiya Bakı və İrəvana təsirini itirməmək üçün Dağlıq Qarabağ münaqişəsinin həllini istəmir:** "ABŞ isə problemin sülh yolu ilə həllinin tərəfdarıdır, lakin irəliləyişə nail olmaq üçün əlində kifayət qədər resursu yoxdur. Hazırda situasiya bir qədər dəyişir. Ermənistanı Moskvadan asılı olmayan hakimiyyət idarə edir, Azərbaycan isə Rusiya ilə münasibətlərini sıxlaşdırır. Nikol Paşinyan diqqətini daxili problemlərə cəmləşdirəcək və Qarabağ lobbisinin əksinə gedəcək addımlar atmağı istəməyəcək. Ola bilər ki, vəziyyət bir-iki ilə dəyişsin. Moskva isə anlayır ki, əgər İrəvanı öz mövqelərindən geri çəkilməyə və Dağlıq Qarabağ məsələsində güzəştə getməyə məcbur edə biləcəksə, onda Azərbaycanda mövqelərini gücləndirəcək. Həmişə bildirmişəm ki, Moskva Azərbaycanı öz tərəfinə tamamilə çəkə bilsə, Ermənistanı satacaq. Lakin burada da böyük müəmma var".

**Digər ekspert rəyi də diqqət çəkir. Axar.az-a açıqlamasında "Polit RUS" ekspert-analitik şəbəkəsinin təsisçisi Vitali Arkov deyib:** "Azərbaycan Rusiya və Türkiyə üçün regionda strateji tərəfdaş, ruhi baxımdan yaxın və qohum ölkədir. Moskva və Ankara tərəfindən Bakıya indiki münasibət təkcə tarixi əlaqələrin yox, həm də Azərbaycan rəhbərliyinin uzaqgörən siyasətinin nəticəsidir".

**Onun sözlərinə görə, bu gün Azərbaycanın işğal edilmiş rayonlarının Bakının nəzarətinə mərhələli geri qaytarılması haqqında Moskva planının (Lavrov planı) tətbiqi ən real görünən variantdır". Arkov əmindir ki, bu aspektdə Rusiya və Türkiyə Ermənistana atəşkəs xəttinin "Dağlıq Qarabağ" sərhədinə köçürülməsindən sonra Azərbaycan ərazi konfliktinin hərbi həllinə cəhd göstərməyəcəyinə dair zəmanət verə bilər:** "Rusiya sülhməramlılarının "Dağlıq Qarabağ"la Azərbaycan arasındakı yeni sərhəddə daxili perimetr boyunca yerləşdirilməsi məsələsinin də tədqiqi mümkündür. Məncə, analoji formada Azərbaycan tərəfindən türkiyəli sülhməramlıların yerləşdirilməsinə ehtiyac yoxdur".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bu mövzu ilə bağlı maraqlı fikirlər söylədi:** "İl başlayandan belə xəbərlərin sayı çoxalır ki, guya Rusiya Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll edəcək. Belə xəbərlər keçmiş illərdə də çox olub. Xəbərlər yayılır ki, Rusiya hətta 7 rayonun boşaldılmasını təmin edə bilər. Mən bu qədər optimist deyiləm. 5 rayonun boşaldılması əvəzində Rusiya Azərbaycana ağır şərtlər irəli sürə bilər. Məsələn, 5 rayonun boşaldılması əvəzinə bölgədə Rusiya hərbi qüvvələrinin yerləşdirilməsi Azərbaycanın xeyrinə deyil. Çünki həmin hərbi hissələr bir daha ölkəmizi öz istəkləri ilə tərk etməyəcəklər. Dağlıq Qarabağdakı ermənilər də bölgədə yerləşən rus hərbçilərindən ikiəlli yapışacaqlar. Rusiya hərbçilərinin bölgədə yerləşdirilməsi həm də o demək olacaq ki, biz işğalçıya hərbi təzyiq edə bilməyəcəyik. Çünki atəşkəsin pozulması nəticəsində bu, bölgədə yerləşdirilən rus hərbçilərinə atəş açılması demək olacaq ki, Rusiya-Azərbaycan münasibətləri avtomatik gərginləşəcək".

**E.Şahinoğlunun sözlərinə görə, Rusiya Qarabağ münaqişəsini həll etmək istəsəydi, bunun üçün 2016-cı ilin aprelində münbit şərait yetişmişdi və həmin dövrdə məsələni həll edə bilərdi:** "4 günlük döyüşlərdən sonra Moskva Ermənistanı ilkin olaraq 5 rayonun qaytarılması ilə sülhə məcbur edə bilərdi. Yəni İrəvanı anladardı ki, məsələ sülh yolu ilə həll olunmursa bölgədə uzunmüddətli müharibə başlaya bilər ki, bu heç kimin xeyrinə deyil. Əgər Moskva bunu o zaman etmədisə, indi niyə etməlidir? Əlbəttə, Kremlin Ermənistanın hazırkı baş naziri Nikol Paşinyana münasibəti müsbət deyil. Ancaq Moskvanın nəzarətində "Qarabağ klanı" var. Kreml gələcəkdə Paşinyana qarşı bu klandan istifadə edəcək". **Ona görə də politoloq deyir ki, Paşinyan keçmiş amerikalı diplomat Metyu Brayzanın dediyi kimi, riskə gedib Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayacaq:** "Bunu ancaq Azərbaycan ordusu Paşinyana məcbur edə bilər. Ümumiyyətlə, Ermənistan hakimiyyətində kim olursa-olsun öz xoşu ilə torpaqlarımızı azad etməyəcək. Düzünə qalsa, belə bir həll planı bizim üçün də münasib deyil. Çünki "sülh yolu" ilə boşaldılan rayonların qarşılığında bizə böyük tələblər irəli sürüləcək. Biz elə etməliyik ki, işğalçı Ermənistan və Rusiyadakı siyasi dairələr Azərbaycanı ordusunun qətiyyəti qarşısında ilkin şərt irəli sürmədən torpaqlarımızı boşaltmağa razı olsunlar". E.Şahinoğlu onu da qeyd etdi ki, Brayza keçmiş illərdə də reallıqdan uzaq fikirlər söyləyirdi, proqnozları bir çox hallarda doğrulmurdu.

Bu arada Ermənistanda anti-Rusiya meyllərinin güclənməsi də Azərbaycan üçün şans yarada bilər. Ermənistanın Gümrü şəhərində yerləşən Rusiyanın 102-ci bazasının qarşısında etiraz aksiyası keçiriləcək. (Axar.az) Bu sözləri öz facebook səhifəsində Ermənistanın Avropa Partiyasının həmsədri Tiqran Xzmalyan paylaşıb. Onun sözlərinə görə, etiraz aksiyası 12 yanvarda baş tutacaq.

Qeyd edək ki, keçən ilin sonundan etibarən Ermənistanda rus bazasına qarşı aktiv etiraz aksiyaları təşkil edilməyə başlanıb.

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# Deputat oğlunun iranlı turisti döyməsi xəbərindən danışdı

**Bəzi mətbuat orqanları Lerikin deputatı İqbal Məmmədovun oğlu Mirhəmid Məmmədovun dekabrın 31-də "Relax" istirahət mərkəzində dava saldığı barədə məlumat yayıb.**



Qeyd edilib ki, deputatın oğlu bayram günlərində tətil etmək məqsədilə "Relax"da olub və orada istirahət edən iki iranlı ilə dalaşıb. İddia olunur ki, deputatın oğlu butulka ilə iranlının birinin başına zərbə endirib, digərini isə möhkəmcə döyüb.

Milli Məclisin 78 saylı Lerik seçki dairəsindən deputatı İqbal Məmmədov modern.az-a açıqlamasında məlumatı təkzib edib.

Deputat bildirib ki, bayram günlərində özü də "Relax"da olub və yayılan məlumat həqiqətəuyğun deyil:

"Mən özüm də orada olmuşam, ailəvi bayramı rayonda qeyd etmişik. Oğlum heç kəslə dalaşmayıb və deyilənlər yalandır. Əgər belə bir şey olubsa, hüquq-mühafizə orqanları var. Özbaşınalıq deyil ki, kimsə kimisə döysün. Oğlum Türkiyədə təhsil alır. Bayramı bizimlə keçirdikdən sonra yenidən Türkiyəyə qayıdıb".

# Gəncədə çay evində xalası oğlunu öldürən şəxs tutuldu



**Çay evində xalası oğlunu öldürən şəxs saxlanılıb.**

DİN-dən verilən məlumata görə, yanvarın 7-də Gəncə şəhərindəki çay evlərinin birində şəhər sakini, əvvəllər məhkum olunmuş Məmməd Məmmədovun münaqişə zəminində orada işləyən xalası oğlu, əvvəllər məhkum olunmuş Valeh Zeynalovu bıçaqla qətlə yetirməsi barədə daxil olmuş məlumatla əlaqədar dərhal polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən müvafiq tədbirlər görülüb.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 120-ci maddəsi (qəsdən adam öldürmə) ilə cinayət işi başlanıb.

Həyata keçirilmiş istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində M.Məmmədov saxlanılıb.



# Metroda tütün təbliği

Zamin HACI
zaminhaci@gmail.com

**Bu gün 9 yanvardır. Sovet vaxtı biz 9 yanvarı "Qanlı bazar günü" kimi qeyd edərdik, məktəblərdə beynimizi xarab eləmişdilər ki, 1905-ci ilin məhz bu günündə çar Nikolay ordunu basıb dinc nümayişçiləri dağıdıbdır, nə qədərsə adam ölübdür. İndi isə azad, demokratik, müstəqillik şəraitində yaşayırıq, bazar günlərimiz isə qanlı olmur. Əksinə, hər bazar çoxlu dəvətnamə alıb şadlıq sarayında yeni evlənən gənclərə xeyir-dua verməyə gedirik.**

Elə bu cür sosial siyasətin sayəsində bizim səhiyyə xərclərimiz, təhsilə ayrılan pullar ilbəil artır. Misal üçün, bu dəqiqə təkcə 4 nömrəli "Kəndçi balnisamıza" ayrılan dövlət büdcəsi vəsaiti bütün Kaliforniya ştatındakı erməni lobbisinin tibbi sığortasından çoxdur. O cümlədən hər gün yeni idman qurğuları, hovuzlar, güləş meydançaları, boks rinqləri, turniklər, tatamilər açılır. Bunlar hamısı sağlam bədəndə sağlam ruh olması üçündür. Əgər zəhmətkeşlərimiz uzun ömür sürüb Yeni Azərbaycan quruculuğunun sonunu gözləri ilə görməyəcəksə, canlı şahidi olmayacaqsa, bu bizim dövlət siyasətinə yaddır. Pensiya yaşının 75-ə qaldırılması hələ ilk mərhələdir. Parlamentin yaz sessiyasında pensiya yaşı kişilər üçün 85-ə, qadınlar üçün 110-a qaldırılacaqdır. Bizim buna imkanlarımız çatır. Ermənistan isə boşalır.

Sözgəlişi, tibb müəssisələrimizdə aparılan islahatların bəhrəsini görmək istəyən zəhmətkeşlər hətta bəzən bundan sui-istifadə edirlər. Görürsən sol ayağı kəsilməlidir, qəsdən sağ ayağını qabağa uzadır ki, həkim bunu da kəssin. Klassiklərimizdən birinin hələ yüz il qabaq təsvir elədiyi diş çəkdirmək əhvalatının eynisidir. Mən başa düşmürəm, tibbi xidmət pulsuz, dövlət büdcəsi hesabına olanda bundan şirniklənmək nəyə gərəkdir? Necə deyərlər, məscidin qapısı açıqdır, bəs itin abrına nə gəlibdir? Belə olmaz, yoldaşlar. Gəlin dövlət büdcəmizdən səmərəli istifadə edək.

Çar hökuməti dedim, yaxşı yadıma düşdü. Sovet vaxtı bizə bir dərsdə də Leninin türmədən inqilabçı dostlarına gizli məktub yazmasından bəhs olunurdu. Yazmışdılar ki, Volodya müəllim qara çörəyin üstünə südlə məktub yazıb ötürürmüş. Mən hələ o zaman fikirləşmişdim ki, ey dadi-bidad, bu nə təhər axmaq çar rejimi olubdur, dustağa qara çörək və süd verirmişlər. Dünən bir dəstə insansevər şəxslər türmədə Mehman Hüseynova baş çəkiblər, deyirlər o da süd içir. Əlbəttə, iddia etmirəm Mehman müəllim çıxıb bizim yeni Lenin olacaqdır, ancaq siz humanizmə baxın! Dünyanın hansı türməsində adama süd verirlər? İndiki zəmanədə... Ermənistanda heç sağmal inək qalmamışdır. Ümid edirlər haçansa oranı azad edərik, məşğulluq proqramı əsasında ermənilərə də inək pay verərik. Sağlıq olsun.

Bütün bu uzun-uzadı sicilləmənin mənası isə metroda gördüyüm bir reklamla bağlıdır. Qeyd etdiyim kimi, əhalinin sağlamlığı dövlət qayğısı altındadır, siqaretlə, tütünlə mübarizə də bunun tərkib hissəsidir. Antinikotin kampaniyası çərçivəsində metroda tütün, siqaret, narkotik əleyhinə çoxlu reklamlar vurulubdur, lap yaxşı ediblər. Ancaq bunun yanında tam tərsi, tütün reklamı da vardır, hesab edirəm metro rəhbərliyi bunu həll etməlidir. Demək, hansısa nəşriyyat metroda kitab oxumağı təbliğ edir, bir plakat hazırlayıb, o şəkildə qız uşağı vaqon kimi bir yerdə əyləşib, əlində kitab açıb, kitabın üz qabığında isə... Anar müəllimin portreti verilib. Əlbəttə, Anar müəllimin şəklinin kitab təbliğində istifadəsi yerinə düşür, nə də olmasa Yazıçılar Birliyinin 70 ildir sədridir, gənclər tərəfindən çox sevilən "Təhminə ilə ay Zaur" verilişinin müəllifidir, bundan başqa nərd oynamağa adam tapmayıb özü-özüylə nərd oynayan sovet adamı tipini yaratmaqla dissident ədəbiyyatımızın banisi olmuşdur. Yəni, orda Anar müəllimin şəkli çox təbiidir. Bir lətifədə deyilən kimi, saat şəkli vurmalı deyildik ki? Sadəcə, yeganə problem ondadır ki, həmin fotoda Anar müəllimin ağzında yekə bir qəlyan vardır! Düzdür, Anar müəllimin qəlyansız şəklini tapmaq yəqin metro idarəsi üçün çətin olubdur, ancaq gəlin etiraf edək ki, tütünün ziyanları haqda sosial reklamın düz böyründə qəlyan çəkən məşhur şəxsiyyətin fotosunu vermək uğursuz hərəkətdir.

İndi söz əlaqədar orqanlarındır.

# KTMT-də müşahidəçi ölkə olaqmı - müxalif rəylər

## "Putin NATO-su"na münasibət müxalifətdə də birmənalı deyilmiş

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müşahidəçi statusda üzv olmağa imkan yaradan əsasnamə ötən ay qəbul edildi. Uzun zamandır Azərbaycanın KTMT-yə üzv olub-olmayacağı məsələsi mediada müzakirə olunur. Belə bir müzakirələrin getdiyi vaxtda KTMT-yə müşahidəçi statusda üzvlük üçün qanuni əsas yaradılması yeni situasiya formalaşdırıb. Bir sıra politoloqlar iddia edir ki, müşahidəçilik statusu məsələsi məhz Azərbaycan, Özbəkistan və bir neçə dövlətin KTMT-də bu statusda iştirakı üçündür. Onu da qeyd edək ki, qurumun üzvlərindən yalnız Ermənistan nizamnaməyə belə bir əlavənin edilməsinə qarşı idi.**



Azərbaycanda isə KTMT-yə hətta müşahidəçi statusda üzv olmaq məsələsində də birmənalı fikir yoxdur.

Müxalifət düşərgəsində də bu məsələdə fərqli mövqe var.

**Məsələn, AĞ Partiyanın sədri Tural Abbaslı "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın KTMT-yə üzv, müşahidəçi və ya tərəfdaş dövlət kimi cəlb olunması məsələsi istər siyasilər, istərsə də cəmiyyət tərəfindən kifayət qədər ciddi, dərin analiz edilmir, layiqi diqqət verilmir:** "Hər kəs bu məsələyə çox səthi yanaşır və buna uyğun da lehinə və ya əleyhinə mövqe sərgiləyir. Ancaq bu məsələyə daha diqqətli yanaşmaq lazımdır. Çünki belə məsələlər bizim kimi dövlətlərdə bir çox hallarda həlledici olur. Hələ nəzərə alsaq ki, bizim işğalda olan ərazilərimiz mövcuddur, o zaman məsələnin ciddiyyəti daha da artır. Mən hələ KTMT-yə üzv dövlətlərdən birinin məhz ərazilərimizi işğalda saxlayan Ermənistan olmasını demirəm. Qeyd olunanları nəzərə alsaq bir daha əmin olarıq ki, bu sahədə veriləcək istənilən qərar çox ciddi və tale yüklü qərar olacaq.

Bu mövzu Ağ Partiya olaraq bizim üçün hər zaman ən həssas məsələlərdən biri olaraq qalır. Biz anlayırıq ki, belə mövzuların ictimai müzakirəsi zamanı pafos və avantüradan maksimum kənar olmaq lazımdır. Çünki bu qərar Qarabağımızın gələcəyinə və azadlığına birbaşa təsir edəcək. Məhz bununla bağlı bu yaxınlarda Qarabağ Komitəsi olaraq da dəyirmi masa keçirdik və orada da ətraflı müzakirələr apardıq. Əvvəla, onu qeyd edim ki, hökumət hələ də bu mövzuyla bağlı aydın mövqeyini cəmiyyətlə bölüşməyib. Odur ki, bu mövzudakı bir çox diskussiyalar ehtimallar üzərində aparılır. Əgər ehtimal etsək ki, 1-ci mərhələdə Azərbaycanın KTMT-yə üzvlüyündən deyil, başqa formada əməkdaşlığından söhbət gedir, o zaman burada iki nüans yaranır. Belə ki, biz KTMT-yə üzv kimi yox, ya müşahidəçi dövlət kimi, ya da tərəfdaş dövlət kimi qoşula bilərik. Bu, iki ayrı münasibətlər formasıdır. Bilindiyi kimi, istənilən hərbi, siyasi və ya iqtisadi birliklərə üzv olan zaman ölkələr və birliklər qarşılıqlı öhdəliklər götürürlər. Bu öhdəliklərin də bu və ya digər formada qarantiyası təmin olunur. Gəlin birlikdə analiz edək və görək ki, belə bir qoşulma Azərbaycana nə verəcək. Onu da unutmayaq ki, istənilən formada bizim KTMT-də iştirakımıza Ermənistanın tamhüquqlu üzv kimi veto qoymaq hüququ mövcuddur. KTMT-nin əsasnaməsinə görə, müşahidəçi dövlətlər birlik qarşısında bu öhdəlikləri götürür. Müşahidəçi üzv kimi öz xarici siyasətini KTMT-nin xarici siyasətinə uyğunlaşdırır və onun qəbul etdiyi sənədlər çərçivəsində siyasət yürüdür. Müşahidəçi ölkə kimi KTMT-yə üzv olan bütün dövlətlərlə, həmçinin Ermənistanla heç bir ön şərt qoymadan bütün diplomatik əlaqələr bərpa edilir. Müşahidəçi ölkə həmçinin öhdəlik götürür ki, o, KTMT-yə üzv olan digər ölkələrin, Ermənistan daxil, maraq və təhlükəsizliyini təhlükəyə atacaq heç bir addım atmayacaq. Bütün bunların qarşılığında isə KTMT təşkilat kimi Azərbaycan qarşısında heç bir öhdəlik götürmür. Hətta silah alış-satışında qiymətlərin tənzimlənməsinə əsasən Rusiya və ya digər dövlətlərdən alacağımız silahların qiymətlərində belə heç bir güzəştlər tətbiq olunmur. Hansı ki, Rusiya KTMT üzvlüyünə əsasən Ermənistana eyni silahları dəfələrlə ucuz qiymətə satır".

**T.Abbaslı qeyd etdi ki, tərəfdaş ölkə statusuna gəldikdə, burada vəziyyət daha da ağırdır. Yəni baxmayaraq ki, müşahidəçi statusu tərəfdaş statusundan daha üstün statusdur, tərəfdaş ölkənin öhdəlikləri daha ağırdır:** "Belə ki, tərəfdaş ölkə müşahidəçi ölkənin öhdəlikləri daxil olmaqla, əlavə olaraq həm də KTMT-nin tədbirlərində iştirak etməyə məcburdur. Buraya birgə keçirilən hərbi təlimlər və sair daxildir. Hələ mənim sadaladığım aysberqin görünən tərəfləri idi".

**Yeni AXCP-nin sədri Razi Nurullayev isə bildirdi ki, Dağlıq Qarabağın işğaldan azadlığı naminə Azərbaycanın KTMT-yə qoşulmasına müsbət yanaşır:** "Bir neçə dəfə demişəm, yenə də təkrar etmək istəyirəm ki, KTMT-yə üzv dövlətlər müstəqil siyasət yeridirlər və Rusiyadan asılılıqları yoxdur. Əksinə, onlar Rusiyanın təşəbbüsü ilə yaradılan təşkilatlara üzv olmaqla kifayət qədər iqtisadi, siyasi güzəştlər və üstünlüklər əldə ediblər.

Ölkəmizin torpaqlarımızın azad olunması və digər şərtlər daxilində bu quruma qoşulması təhlükəli deyil və buna görə də belə təşəbbüslərə qarşı nəinki çıxmaq fikrimiz yoxdur, əksinə, bu məsələnin ölkəmiz tərəfindən də intensiv müzakirə olunmasını istərdik. Təşəbbüs birtərəfli yox, Azərbaycan tərəfindən də gündəmə gətirilməlidir. Onsuz da ölkəmizin Ermənistan xaric, bu quruma daxil olan üzv ölkələrin hamısı ilə dostluq münasibəti var. Azərbaycanın KTMT-də olması Ermənistanı hər toplantıda gözümçıxdıya salacaq, ona təzyiqləri gücləndirəcək".

**AMİP-in beynəlxalq əlaqələr üzrə katibi Elşən Mustafayev isə qeyd etdi ki, Azərbaycanın KTMT-yə müşahidəçi kimi qəbul olunması baş versə, bu, bir müddət sonra onu üzvlüyə aparan yoldur:** "Bu yolun sonu isə KTMT qoşunları adı altında Azərbaycanda Rusiya hərbi bazalarının yerləşdirilməsinə gətirə bilər. Halbuki hərbi ittifaqsız belə, şimal qonşumuzla münasibətlər çox yaxşıdır. Vaxtilə Boris Yeltsinin Azərbaycandan qoşunların çıxarılmasının böyük səhv olmasını söyləməsini də unutmaq olmaz. Başqa bir tərəfdən, hətta ehtimal etsək ki, bizim müşahidəçi statusumuz özümüzün qoyduğumuz şərtlər çərçivəsində olacaq və bu şərtlər Azərbaycanın müstəqil hərbi, siyasi, iqtisadi siyasətinin aparılmasını təmin edəcək, yenə də Ermənistanın üzv olduğu qurumda müşahidəçi olmağımız mümkünsüz olur. Çünki torpaqlarımızı işğal etmiş, onu qaytarmaqdan hər vəchlə imtina edən, hələ də müharibə vəziyyətində olduğumuz Ermənistanla bir blokda-fərqi yoxdur hətta müşahidəçi kimi olmağımız çətin məsələdir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 5 (7175) 9 yanvar 2019

**Dünən Ermənistanın baş nazir səlahiyyətlərini yerinə yetirən Nikol Paşinyanın inqilab nəticəsində hakimiyyətə gəlişinin 8 ayı tamam oldu. Bu müddət istənilən siyasi qüvvə üçün özünü yaxşı tərəfdən göstərmək baxımından kifayət qədər böyük zamandır. Lakin müstəqil erməni təhlilçiləri də etiraf edirlər ki, bu müddətdə işğalçı ölkənin siyasi, sosial-iqtisadi problemləri və təhlükəsizliyi ilə bağlı inqilaba qədərki ağır vəziyyət inqilabdan sonra da öz ağırlığını saxlayır.**




# İnqilab eyforiyası bitdi - Paşinyan məhşər ayağına çəkilir

## Düşmən ölkədə yeni kritik dönəm başlayır; "Keçid dövrü başa çatdı, səhv limiti tükəndi" yazan qərbyönlü erməni mediası Paşinyandan real iş tələb edir; erməni baş nazir əvəzi isə xalqa Leninsayağı çağırış etdi: "İşləmək, işləmək, işləmək..."

Ən əsası, Sərkisyan rejimini, Qarabağ klanını devirən erməni xalqının öz güzəranı əsla yaxşılaşmayıb, ölkədən kütləvi köç səngiməyib, böyük xarici sərmayələri Ermənistana cəlb eləmək mümkün olmayıb, xarici borclar artıb, xarici siyasət prioritetləri dəqiqləşməyib. Dağlıq Qarabağ məsələsi və müharibə riski də öz yerində. Paşinyan və komandası ötən zaman kəsiyində də populist bəyanatlar verməkdə davam edib.

Nəticədə 8 ay öncə ilə müqayisədə Paşinyana qarşı istər Rusiyanın, istərsə də Qərbin (ABŞ-ın) inamı-etibarı azalıb. Ermənistan daxilində də ona inam zədələnib. 9 dekabr parlament seçkilərində elektoratın cəmi 48%-nin seçkilərə gəlməsi həm də bunun anonsu idi.

*****

Bu arada Paşinyan ölkə vətəndaşlarını Yeni ilin ilk iş gününün başlaması münasibətilə təbrik edib (?!) və yenə populizmindən qalmayıb. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə Painyan özünün facebook səhifəsində yazıb və mövcud problemlərin həlli yolunu göstərib: "Bizim bütün problemlərimizin yalnız bir həll yolu var, bir müstəsna yol var. Onun adı - zəhmətdir. Yaşasın zəhmət! Hamı iş başına", - deyə o bolşeviklərin lideri Leninsayağı öz xalqına müraciət edib.

Amma problem də elə Ermənistanda iş qabiliyyətli əhalinin özünə normal iş tapıb işləyə bilməməsindədir. Artıq sadə ermənilər Paşinyan və komandasının bu problemi həll edəcəyinə inanmırlar. Əsas da əlbəttə ki, Ermənistanda inqilabdan sonrakı, indiki durumdur. Ölkədə artıq inqilab eyforiyası bitib və hamı təzə hökumətdən real nəticə gözləyir.

**"Bundan sonra Paşinyan komandası əvvəlki aylardakı kimi istifadə elədiyi təbliğati tezislər hesabına nəticəsizliyi izah edə bilməyəcək". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə qərbyönlü armenianreport.com-un dünənki baş məqaləsində deyilir.**

"Yanvarın 14-də yeni hökumət formalaşacaq və baş nazir təyin ediləcək. 14 yanvarda mahiyyət etibarilə postinqilab dövrü bitir - hansı dövrdə ki, cəmiyyət aprel-mayda əldə olunmuş status-kvonun möhkəmlənməsi üçün hökumətin kiçik və böyük uğursuzluqlarına göz yumurdu. Yanvarın 14-sən sonra isə cəmiyyət artıq tələbkar olacaq, inqilabın maddiləşməsini tələb edəcək. Başqa yandan, daha əvvəlki real və ya təbliğati tezislər işə yaramayacaq", - deyə məqalədə bildirilir.

**Məqalədə ardınca deyilir:** "İnqilab günlərində və ondan sonrakı 8 ayda biz təzə hökumətdən dəqiq siyasi və iqtisadi mesajlar eşitmədik. Bu mənada hələ bəlli deyil ki, Paşinyanın 2019-cu ilin prioriteti kimi elan elədiyi iqtisadi inqilabın qayəsində nə durur. Yalnız inqilab sonrası keyfiyyətli seçkilər xarici sərmayələr üçün stimul ola bilməz, ona görə ki, Ermənistanın siyasi və iqtisadi sisteminin mahiyyətinin necə olacağı naməlumdur. Keçid dövrü başa çatıb. Əgər hətta Nikol Paşinyan bundan sonra da diletantlıq edəcəksə, buna artıq tələbkar olan toplum dözməyəcək. Başqa sözlə, Nikol Paşinyanın komandası kritik cizgini keçib, səhv eləmək limiti artıq bitib".

*****

Erməni siyasi şərhçinin də sözlərindən qənaət hasil olur ki, artıq işğalçı ölkədə postinqilab eyforiyası başa çatıb və yanvarın 14-də o, formal olaraq da bitəcək. Bu da o anlama gəlir ki, Nikol və komandası yavaş-yavaş məhşər ayağına çəkiləcək. Real işlər görmək, uğurlu islahatlar aparmaq üçünsə, yuxarıda da vurğulandığı kimi, bir neçə mühüm şərtin təmin olunması vacibdir. "Halva-halva deməklə ağız şirin olmur", olmayacaq.

Özü də Nikol Paşinyan bir neçə ağır problemə eyni vaxtda güc vurmalı olacaq ki, ermənilərə vəd elədiyi "cənnət"ə apara bilsin. Bu isə əksər təhlilçilərə görə, olduqca qəliz məsələdir. Daha doğrusu, mümkünsüzdür. Çünki həmin problemlər xarici siyasət oriyentirləri və həlli yetişən Dağlıq Qarabağ problemi ilə birbaşa bağlıdır...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

---

# Rusiya və İranı Xəzərdə yaxınlaşdıran səbəblər

## İlk dəfə qapalı dənizdə piratçılıqla mübarizə məqsədli təlimlər keçiriləcək; Moskva və Tehran daha nədən narahatdır?

**Rusiya və İran Xəzər dənizində birgə təlimlər keçirəcək. Bu barədə ötən həftə İran Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Hüseyn Hənzadiyə istinadən "Mehr" agentliyi məlumat yayıb. Məlumata görə, o, təlimlərin iki ölkə arasında strateji və taktiki əməkdaşlığın səviyyəsini artıracağını söyləyib. Hənzadinin sözlərinə görə, təlimlər taktiki və xilasetmə əməliyyatlarının işlənməsi, eləcə də dəniz piratçılığı ilə mübarizə üzrə əməliyyatlardan ibarət olacaq.**



Qeyd edək ki, ötən ilin avqustunda Xəzəryanı ölkələr tərəfindən yekun anlaşma imzalanıb və dənizin hüquqi statusu müəyyən olunub. Razılaşma Xəzərin 5 ölkənin qapalı su sahəsinə çevrilməsini nəzərdə tutur. Əlbəttə, 50 milyard barel neft və 9 trilyon kubmetr qazın olduğu Xəzər dünyanın bir çox ölkəsinin diqqət mərkəzindədir - həm də təkcə neft və qazına görə deyil. Söhbət həm də dünyanın ən qaynar münaqişə ocaqlarının yaxınlığında yerləşən, potensial "qaynar bölgə"dən gedir.

Yeri gəlmişkən, Rusiya və İran əvvəlki illərdə də bir neçə dəfə Xəzərdə hərbi təlimlər keçirib. Rusiya və İran bəyan ediblər ki, dənizdə hərbi əməkdaşlığı dərinləşdirəcəklər. Sonrakı illərdə digər sahilyanı ölkələr, o cümlədən Azərbaycan da təlimlərə qatılıb. 2013-cü ildə Rusiya və İran Xəzər dənizində ikinci taktiki təlimlərini keçirib. 2017-ci ildə isə Azərbaycan, Rusiya, İran, Qazaxıstan və Türkmənistan noyabr ayında qəza və fövqəladə hallara həsr olunmuş təlimlər keçirib. 1100 nəfərin iştirak etdiyi təlimlərə Azərbaycanın fövqəladə hallar naziri Kamaləddin Heydərov rəhbərlik edib. Təlimlərdə 208 müxtəlif texnika, o cümlədən 5 vertolyot, 2 amfibiya təyyarə, 8 ədəd gəmi və sürətli kater iştirak edib.

2018-ci ildə isə Xəzərin Azərbaycan ərazi sularında "Dəniz Kuboku - 2018" beynəlxalq yarışları keçirilib. Bu yarışlarda iki İran gəmisi "Peykan" və "Cövşən" adlı raket katerləri də iştirak edib. Ümumilikdə son illərdə İran və Rusiya Xəzərdə hərbi gücünü artırır. İran son 3 ildə Xəzər donanmasına daha iki gəmi əlavə edib.

İranın Xəzərdə 6 döyüş gəmisi var. Onlardan ikisi raket gəmiləridir. Eyni şəkildə Rusiya da Xəzərdə hərbi gücünü son illərdə artırır. Doğrudur, Azərbaycan və Türkmənistan kimi ölkələr də Xəzərdəki hərbi gücünü artırıb.

Xatırladaq ki, Azərbaycanın İsraildən aldığı silahlar arasında gəmi əleyhinə, hərəkət məsafəsi 36 km olan "Gabriel-522-x" raketlərinin olduğu haqda hələ bir neçə il əvvəl məlumat yayılmışdı. Alınan başqa bir silah "Barak-8" sistemləri və onlar üçün 75 raket idi. Bu sistemin xarakteristikasında "Barak" raketinin hər biri təxminən 1,6 milyon dollar olduğu, 21,8 kiloqramlıq döyüş başlığı ilə birlikdə çəkisi 98 kq olduğu, uçuş məsafəsinin isə 10 km təşkil etdiyi qeyd olunurdu. RLS 360 dərəcə qət edir, raketlər isə hücumda olan gəmi əleyhinə və ya uçan raketləri 500 metr məsafədən vura bilər. Hər bir "Barak" sistemi (raketləri, radarı, kompüterləri və qurğusu olan konteyner) təxminən 24 milyon dollar dəyərindədir. Sistem təyyarələrə qarşı da səmərəlidir. "Barak" gəmilərdə və ya yük maşınlarında quraşdırıla bilər.

Sahilyanı ölkələrin Xəzərdə hərbi imkanlarını artırması bu bölgədə yeni hərbi situasiyanın yaranmasına işarədir. Məsələ ondadır ki, İran və Rusiya 6-cı ölkənin Xəzərə daxil olmasından narahatdır. Bu mövzuda Rusiya və İran ortaq mövqedədir, Türkmənistanın bu məsələdə mövqeyi bilinməsə də, Qazaxıstanın Xəzərə 6-cı ölkənin yerləşə biləcəyi ilə bağlı təkliflərinin olduğunu daha əvvəl media yazıb. Eyni zamanda əsrin əvvəllərində İran və Azərbaycan arasında soyuqluğun bir səbəbi də Xəzərdə Azərbaycan ərazilərində Qərb ölkələrinə məxsus gəmilərin üzməsi idi.

Xəzərdə keçiriləcək təlimlərlə bağlı yeni nüans isə hərbi təlimlərin məqsədləri sırasında dəniz piratçılığı ilə mübarizə üzrə əməliyyatların olmasıdır. Xəzərdə daha əvvəl təlimlərlə bağlı bu detal olmayıb. Belə görünür ki, Rusiya və İran Xəzərdə dəniz quldurluğu təhlükəsindən narahatdır.

Daha bir maraqlı detal ondan ibarətdir ki, ABŞ-ın İrana qarşı sanksiyaları işə düşdükdən sonra Tehranın əsas ticarət yollarından biri Xəzər olacaq. Gizli neft nəqli, eyni zamanda qadağan olunmuş yüklərin daşınması, raket texnologiyaları və sair üçün indi Xəzər Rusiya və İran arasında əsas nəqliyyat dəhlizinə çevrilə bilər. Ötən il bağlanmış müqavilə 6-cı ölkənin Xəzərdə hərbi mövcudluğunu qadağan etsə də, görünür, Tehran və Moskvanın tam əminliyi yoxdur, bu səbəbdən də Xəzərdə hərbi imkanları daha da artırırlar. Bəzi iddialara görə, 90-cı illərdə nüvə enerjisi və raket istehsalı üçün avadanlıqlar məhz Xəzər üzərindən, embarqonu yarmaqla gizli şəkildə daşınıb. İndi isə ABŞ həm Rusiya, həm də İrana qarşı sərt sanksiyalar tətbiq edib. Təbii ki, Rusiya və İran arasında əsas nəqliyyat bağı məhz Xəzərdə olacaq. Bu isə həm də o deməkdir ki, "qapalı dənizdə" kənar qüvvələr də olacaq.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 5 (7175) 9 yanvar 2019

**Azərbaycanın iki böyük qonşusu 2018-ci ili ABŞ sanksiyaları altında başa vurdu. Ötən il Rusiya və İran iqtisadiyyatı sanksiyalar üzündən ciddi zərərlərlə üzləşdilər. Görünən odur ki, sanksiyalar bu il də davam edəcək. Bu şəraitdə qonşularımızı nə gözləyir: iqtisadi problemlər siyasi-sosial çaxnaşmalara gətirib çıxara bilərmi?**

# ABŞ sanksiyaları altında olan Rusiya və İranı ağır sınaq gözləyir

## Şahin Cəfərli: "Problem təkcə sanksiyaların özü yox, həm də onun dolayı və gözə görünməyən təsirləridir"

**Sualı cavablandıran politoloq Şahin Cəfərli deyir ki, 2018-ci il Rusiya və İran üçün asan keçmədi və hər iki ölkə 2019-cu ilə heç də pozitiv əhvalda başlamayıb:** "Rusiya iqtisadiyyatı hazırda faktiki olaraq staqnasiya, yəni durğunluq vəziyyətindədir. Rəsmi məlumata görə, 2018-ci ilin ilk 3 rübündə (yanvar-oktyabr dönəmi) Ümumi Daxili Məhsulun artım tempi cəmi 1,7 faiz təşkil edib. Son rübün rəqəmləri hələ açıqlanmayıb, amma hökumət bütövlükdə 2018-ci il üçün artım tempi üzrə proqnozunu 2,1 faizdən 1,8 faizə salıb. Hesablama Palatasının sədri Aleksey Kudrin isə bu rəqəmə də şübhə edərək artımın 1,6 faiz həddində ola biləcəyini söyləyib. 2019-il üzrə ÜDM-in artımını hökumət 1,3 faiz səviyyəsində proqnozlaşdırdığı halda A.Kudrinin fikrincə, bu rəqəm 1 faiz, hətta ondan da aşağı səviyyədə gözlənilir. Moskvadakı "Ali İqtisadiyyat Məktəbi" Milli Tədqiqatlar Universitetinin ekspertləri yaxın 3 ildə Rusiyada iqtisadi böyümənin 1,6 - 1,9 faizdən çox olmayacağını bildirirlər. Ölkədən kapital çıxışı da güclənib. Rusiya Mərkəzi Bankının məlumatına görə, 2018-ci ilin yanvar-oktyabr aylarında 44,2 milyard dollar həcmində kapital çıxışı qeydə alınıb və bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3 dəfə çoxdur. İlin yekunları əsasında qaçan kapitalın 66 milyard dollar təşkil edəcəyi gözlənilir".

**Ş.Cəfərlinin sözlərinə görə, Qərblə münasibətlərdə böhranın davam etməsi və gözlənilən yeni sanksiyalarla əlaqədar xarici biznes və sərmayədarlar Rusiyanın gələcəyinə skeptik yanaşır:** "Çox vaxt sanksiyaların Rusiyaya nə qədər ziyan vurduğu haqda konkret hesablamalar aparılır, Kremlə yaxın media bu zərərin yüksək olmadığını və ölkənin sanksiyalara davam gətirdiyi haqda nikbin yazı və təhlillərlə çıxış edir. Halbuki problem təkcə sanksiyaların özü yox, həm də onun dolayı və gözə görünməyən təsirləridir. Hesablama aparılarkən dolayı təsirlər nəzərdən qaçırılır. Başlıca problem budur ki, Qərblə münasibətlərin hazırkı durumu Rusiya iqtisadiyyatı üçün ən azı qeyri-müəyyənlik yaradır, sanksiya rejiminin ağırlaşdırılması ehtimalı ölkədəki biznes mühitini korlayır. Heç bir əcnəbi sərmayədar belə bir vəziyyətdə öz kapitalını Rusiyaya gətirmək istəmir və bu ölkə ilə uzunmüddətli əməkdaşlıqdan qaçır. Məsələn, sanksiyaların tətbiqindən əvvəlki il - 2013-cü ildə Rusiya iqtisadiyyatına birbaşa investisiyaların həcmi 69,2 milyard dollar olmuşdusa, 2017-ci ildə bu rəqəm yarıbayarı azalaraq 26,7 milyard, 2018-ci ilin ilk yarısında isə cəmi 7,3 milyard dollar təşkil edib. Daxil olan məhdud investisiyanın böyük hissəsi isə rusiyalı iş adamlarının xaricdə saxladıqları vəsaitlərdir. Yəni Qərbdən, eləcə də Moskvanın gözləntilərinə əks olaraq, Çindən investisiyalar faktiki olaraq dayanıb. Yeganə müsbət məqam kimi xarici borcun və inflyasiyanın nisbətən aşağı səviyyədə olmasını göstərə bilərik. 2018-ci ildə yüksək neft qiymətləri də Rusiyanın nəfəs almasına




imklan verdi".

**Politoloqa görə, mövcud geosiyasi fon 2019-cu ildə Rusiya üçün yaxşı heç nə vəd etmir:** "Yaxın həftələrdə Rusiyanın ABŞ-dakı 2016-cı il prezident seçkilərinə müdaxiləsini araşdıran xüsusi prokuror Robert Müller təhqiqatını yekunlaşdıracaq. Bu təhqiqat Rusiyaya qarşı yeni sanksiyaların tətbiq olunmasını aktuallaşdıracaq. Məlum olduğu kimi, Konqres 2017-ci ildə Rusiya, İran və Şimali Koreyaya qarşı sanksiyaların tətbiqi haqqında qanun (CAATSA) qəbul edib. Bu qanun çərçivəsində artıq bir sıra sanksiya qərarları qəbul olunub və 2019-cu il ərzində də yeni sanksiyaların tətbiqi gözlənilir. Qanunun əsas özəlliyi budur ki, təkcə Rusiya vətəndaşları və şirkətlərinə deyil, onlarla iş quran üçüncü tərəflərə də sanksiyaların tətbiqi nəzərdə tutulur. CAATSA-nın tələblərinə uyğun olaraq sanksiya tətbiq olunacaq rusiyalı iş adamları, dövlət şirkətlərinin rəhbərləri və siyasətçilərdən ibarət "Kreml siyahısı" hazırlanıb və 2018-ci ilin aprelində ABŞ Maliyyə Nazirliyi bu siyahıdakı 7 oliqarxı özünün SDN (Specially Designated Nationals) siyahısına daxil edərək onlara sanksiya tətbiq edib. Nəticədə oliqarxlar Oleq Deripaska və Viktor Vekselberqə aid nəhəng korporasiyaların ("Rusal" və "Renova") taleyi sual altına düşüb. Bu il SDN siyahısının genişləndirilməsi istisna edilmir. Bu siyahı çox təhlükəlidir və oraya düşmək həmin iş adamının biznesinin məhvi deməkdir. Digər tərəfdən, Konqresdə Rusiyanın qiymətli kağızlarına, dövlət banklarına sanksiyaların tətbiqini nəzərdə tutan qanun layihələri də hazırlanıb. Ötən il Konqresə seçkilər keçirildiyi üçün əsas diqqət seçki kampaniyasına yönəldi və digər məsələlər arxa plana keçdi. Seçkilər yekunlaşdı və demokratlar Nümayəndələr Palatasında çoxluq qazandı. Bu isə şübhə yeri qoymur ki, Rusiyaya yönəlmiş siyasət daha da sərtləşəcək, çünki demokratlar 2016-cı il seçkilərindəki məğlubiyyətlərinə görə Rusiyanı günahlandırırlar və bunu Kremlə bağışlamayacaqlar. Bundan başqa, Rusiya kəşfiyyatının sabiq zabiti Sergey Skripal və qızının Britaniyada zəhərlənməsi faktı üzrə yeni sanksiyaların tətbiqi də gündəmdədir. ABŞ bu hadisəyə görə sanksiyaların ilk mərhələsini artıq tətbiq edib, ikinci mərhələ daha ağır olacaq. Eyni mövzu üzrə Britaniya hökuməti tərəfindən də Rusiyaya qarşı yeni sanksiyaların tətbiqini gözləmək olar. Xüsusən "Brexit" baş verdikdən, yəni Britaniya Avropa Birliyindən çıxdıqdan sonra London öz siyasətini Brüssel ilə koordinasiya etmək məcburiyyətindən xilas olaraq xarici siyasətdə müstəqilləşəcək. Bu da Moskva üçün əlavə başağrısı olacaq, çünki anqlo-sakson ittifaqından fərqli olaraq, Almaniya və Fransa Rusiya ilə bağlı daha ehtiyatlı siyasətin tərəfdarıdır, məhz bu səbəblə AB sanksiya rejimini ağırlaşdırmağa tələsmir".

**İrana gəldikdə isə, ABŞ İran neftinin əsas alıcıları olan 8 ölkənin (Türkiyə, Çin, Hindistan, İtaliya, Yunanıstan, Cənubi Koreya, Yaponiya, Tayvan) hələlik bu ölkədən neft idxalını davam etdirməsinə icazə versə də, artıq İranın neft hasilatında ciddi azalma qeydə alınıb:** "Belə ki, 2018-ci ilin noyabrında İranda hasilat oktyabr ayı ilə müqayisədə 11 faiz azalaraq sutkada 2,954 milyon barel təşkil edib. Adı çəkilən 8 ölkə idxalı dayandırdıqdan sonra vəziyyət daha da çətinləşəcək, çünki neft gəlirləri İran büdcəsi üçün başlıca gəlir mənbəyi olaraq alır. İranın sanksiyaların qüvvədə olduğu illər ərzində iqtisadiyyatını diversifikasiya etdiyi barədə fikirlər yanlışdır, neftən asılılıq davam edir. Ötən ilin son aylarında İranda inflyasiya 30 faizə yüksəlib. Rialın məzənnəsi 50 faizdən çox aşağı düşüb. Beynəlxalq Valyuta Fondunun qiymətləndirməsinə görə, 2018-ci ilin yekunlarına əsasən ÜDM-də 3 faiz, 2019-cu ildə isə 3,6 faiz azalma baş verəcək. Yəni iqtisadiyyat kiçilir. İranda martın ortalarından başlayacaq yeni maliyyə ili üçün hazırlanan büdcə layihəsində gəlirlərin 3,7 faiz azalacağı, mədaxilin 2086 trilyon rial, kəsirin 1120 trilyon rial təşkil edəcəyi proqnozlaşdırılır. Lakin hökumət çalışır ki, böhran insanların gündəlik həyatına çox da təsir etməsin, bu məqsədlə zəruri istehlak mallarının qiymətlərini stabil saxlamaq üçün 14 milyard dollar subsidiya ayrılması planlaşdırılır. Prezident Ruhani büdcə təşkilatlarında çalışanların maaşlarının, eləcə də təqaüdlərin 20 faiz artırılmasını da vəd edib. Bu tədbirlərin sosial gərginliyi nə dərəcədə azaldacağını görəcəyik. İstənilən halda, İran xalqını ağır il gözləyir".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

## Ərdoğan Trampın müşaviri ilə görüşdən imtina etdi



**ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton Türkiyə səfərini yekunlaşdıraraq ölkəsinə geri dönüb. Türkiyə mətbuatı prezidentlə görüşəcəyi də istisna edilməyən Con Boltonun ABŞ ordusunun Suriyadan çıxarılması üçün kürdlərin təhlükəsizliyinə dair Ankaradan zəmanət istənilməsi ilə bağlı İsrail səfərində səsləndirdiyi fikirlərinə görə Ərdoğan tərəfindən qəbul edilmədiyini yazıb.**

Partiyasının TBMM qrup toplantısında çıxış edən Ərdoğan isə Boltonun İsrail səfərində səsləndirdiyi fikirlərə sərt reaksiya verib.

"Boltonun verdiyi mesajı udmağımız mümkün deyil. Bunlar bu ölkədə mənim kürd vətəndaşım kimdir, YPG kimdir, tanımırlar. PKK-YPG-PYD mənim kürd qardaşlarımın təmsilçisi ola bilməz. Biz bu terror qruplaşması üzvlərinin istər kürd, istər ərəb, istərsə də türk vətəndaşlarımızın içərisindən çıxmasına baxmayaraq, öhdəsindən gələrik. Terrorçular kürd olacaq və bunlara toxunmayaq? Belə bir şey ola bilməz. Terrora yeni bir tərif vermisiniz? Terrorçudursa, nə lazımdırsa, ediləcək. Bolton çox ciddi bir səhv etmişdir. Suriyadakı terror koridoru daxilində yer alanlar lazımi dərsi alacaqdır", - deyə Ərdoğan vurğulayıb.

## Aİ İranın Kəşfiyyat Xidmətinə qarşı sanksiya tətbiq etdi



**Avropa İttifaqı (Aİ) köhnə qitənin ərazisində qətl və sui-qəsd cəhdlərinə görə İranın Kəşfiyyat Xidmətinə qarşı sanksiyaları rəsmiləşdirib. Bununla da Avropanın İrana qarşı sanksiya siyahısı genişlənib.**

Bu barədə Danimarkanın xarici işlər naziri Anders Samuelson twitterdə bəyan edib. Yeni sanksiyalarla İranın Kəşfiyyat Xidməti və konkret olaraq iki əməkdaşının Avropa banklarındakı hesabları dondurulacaq.

"Avropa xarici siyasəti üçün vacib bir gün! Avropa ərazisində sui-qəsd məqsədli təxribatlar hazırladığına görə Avropa İttifaqı İranın Kəşfiyyat Xidmətinə qarşı sanksiyaların qüvvəyə minməsinə indicə razılıq verdi. Bu, Avropada belə davranışları qəbul etməyəcəyimizə dair Avropa İttifaqının güclü siqnalıdır", - Samuelson yazıb.

Azvision.az xatırladır ki, rəsmi Kopenhagen İranın xüsusi xidmət orqanlarını Danimarkada qətllər hazırlamaqda ittiham edib. Lakin Tehran ittihamları rədd edib. İki ölkə arasındakı gərginlik nəticəsində Danimarka İrandakı səfirini geri çağırıb. Rəsmi Paris də ötən il Fransadakı terror hücumu cəhdində İranı günahlandırıb.

YENİ MÜSAVAT
N 5 (7175) 9 yanvar 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ üçün ziddiyyətli proqnozlar - danışıqlar bu il dalandan çıxacaqmı?

## Münaqişənin həllində irəliləyiş həm də bölgə uğrunda Rusiya-ABŞ rəqabətindən asılı olacaq; politoloqlar deyir ki...

**Qarabağ probleminin nizamlanması üzrə danışıqların təzəcə daxil olduğumuz 2019-cu ildə intensivləşəcəyi barədə ekspert rəyləri artıb. Bununla belə, ehtiyatlı nikbinlik ifadə edən və ya pessimist fikirdə olan təhlilçilər də az deyil. Öz növbəsində beynəlxalq vasitəçilər son zamanlar kifayət qədər optimist bəyanatlar səsləndirirlər.**




Problemin həllində irəliləyiş isə ilk növbədə Ermənistanın yeni rəhbərliyinin mövqeyinə və iradəsinə bağlanır. Çünki Azərbaycanın məsələnin həllinə yanaşması məlumdur. Rəsmi Bakı ümid edir ki, düşmən ölkədə xunta rejimi iqtidardan gedəndən sonra yeni rəhbərliyik Dağlıq Qarabağ məsələsində konstruktiv yanaşma sərgiləməyi bacaracaq.

*****

ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri Metyu Brayza da Qarabağ münaqişəsinin həllində müsbət dönüşə inananlar sırasındadır. Onun fikrincə, dekabrda keçirilmiş parlament seçkilərindəki qələbəsindən sonra Nikol Paşinyan üçün manevr meydanı yaranıb (virtualaz.org).

“Mən Paşinyanın Qarabağ probleminin həllində bir sıra riskli addımlar ata biləcəyini istisna etmirəm. Onunla şəxsən tanış deyiləm və deyə bilmərəm ki, o, konkret hansı addımlara gedə bilər. Bu, daha çox prezident İlham Əliyevlə Nikol Paşinyanın şəxsi münasibətlərinin necə olacağından və bir-birilərinə nə qədər güvənəcəklərindən asılıdır. Ona görə hələlik nəyi isə konkretləşdirmək çətindir. Amma bir şeyi dəqiq bilirəm ki, əgər prezidentlər Köçəryan və Sərkisyanın Qarabağ liderləri qarşısında öhdəlikləri var idisə, Paşinyanın belə öhdəliyi yoxdur və bu baxımdan o daha azaddır”, - deyə Brayza vurğulayıb.

Lakin Paşinyanın bu unikal üstünlükdən necə istifadə edəcəyi bəlli deyil. Heç şübhəsiz, yaxın müddət üçün onun əsas diqqəti daxildə özünün hakimiyyətini möhkəmlətməyə və siyasi rəqiblərini zərərsizləşdirməyə yönələcək. Erməni əhali isə ondan ilk növbədə inqilab zamanı verdiyi vədləri tutmağı istəyir, çörək, iş yerləri, güzəranının yaxşılaşmasını gözləyir. Bu isə birbaşa və dolayısı ilə Qarabağ məsələsinin həllinə və ya məsələnin həllində ciddi irəliləyiş zərurətinə gedib dirənir. Türkiyə və Azərbaycanla sərhədlərin açılmasını diktə edir.

Paşinyan bunu tezliklə anlayacaq. Başa düşəcək ki, Rusiyadan güclü siyasi-təhlükəsizlik asılılığında və vassal tabeçiliyində qalmaqla, blokada rejimində olmaqla ölkədə köklü demokratik və iqtisadi islahatlar həyata keçirmək, iqtisadiyyatı dirçəltmək, ölkədən kütləvi köçü azaltmaq, Ermənistana böyük həcmdə xarici sərmayə cəlb eləmək mümkün olmayacaq.

*****

**“Bugünkü gün Bakının nəzarətinə Azərbaycanın işğal edilmiş rayonlarının mərhələli geri qaytarılması haqqında Moskva planının (Lavrov planı) tətbiqi ən real görünən variantdır”. “Yeni Müsavat”ın məlumatına görə, bu sözləri axar.az-a açıqlamasında “Polit RUS” ekspert-analitik şəbəkəsinin təsisçisi Vitali Arkov deyib.**

“Azərbaycan Rusiya və Türkiyə üçün regionda strateji tərəfdaş, ruhi baxımdan yaxın və qohum ölkədir. Moskva və Ankara tərəfindən Bakıya indiki münasibət təkcə tarixi əlaqələrin yox, həm də Azərbaycan rəhbərliyinin uzaqgörən siyasətinin nəticəsidir. Moskva və Ankara Bakının 2015-ci ildə baş verən faciəvi Su-24 insidentindən sonra iki böyük qonşusunu barışdırmaqda göstərdiyi səyləri dəyərləndirir və xatırlayır. Moskva üçün başlıca hədəf Rusiya-Azərbaycan münasibətləri çərçivəsində Bakıya Qarabağ konfliktinin sülh yolu ilə həllinə yardım etməkdir. Bu gün Bakının nəzarətinə Azərbaycanın işğal edilmiş rayonlarının mərhələli geri qaytarılması haqqında Moskva planının (Lavrov planı) tətbiqi ən real görünən variantdır”, - deyə o qeyd edib.

**Arkov əmindir ki, bu aspektdə Rusiya və Türkiyə Ermənistana atəşkəs xəttinin “Dağlıq Qarabağ” sərhədinə köçürülməsindən sonra Azərbaycan ərazi konfliktinin hərbi həllinə cəhd göstərməyəcəyinə dair zəmanət verə bilər.** “Rusiya sülhməramlılarının ”Dağlıq Qarabağ"la Azərbaycan arasındakı yeni sərhəddə daxili perimetr boyunca yerləşdirilməsi məsələsinin də tədqiqi mümkündür. Məncə, analoji formada Azərbaycan tərəfindən türkiyəli sülhməramlıların yerləşdirilməsinə ehtiyac yoxdur" - ekspert əlavə edib.

**Öz növbəsində digər rusiyalı analitik, beynəlxalq münasibətlər üzrə ekspert Qriqori Trofimçuk hesab edir ki, Dağlıq Qarabağ ətrafında vəziyyət ilk dəfə uzun müddət ərzində əhəmiyyətli dərəcədə dəyişib.** “2018-ci ildə Ermənistanda və ətrafında baş verən siyasi hadisələri nəzərdə tuturam. Azərbaycan bu strateji şansı dəyərləndirməli, yaranan yeni şəraitdə necə davranmalı olduğunu müəyyən etməlidir. Amma bunun həmişə belə davam edəcəyini düşünüb ləngimək olmaz. Bu şanslardan biri xüsusilə Bakı ilə KTMT arasında əlaqələrə aiddir”, - deyə o qeyd edib.

**Politoloq xatırladıb ki, sonuncu dəfə Qarabağ və ətrafında olan dəyişiklik 2014-cü il Krım hadisələri ilə əlaqəli olub:** “Bu, avtomatik olaraq 2014-cü ilin avqustunu və 2016-cı ilin aprel hadisələrini meydana gətirdi. Nəticə etibarilə Azərbaycan ordusu bəzi torpaqlarını qaytarmağa müvəffəq oldu. Ancaq bu dəfə Bakı heç bir şeyi müharibə yolu ilə həll edə bilməz. Azərbaycan tərəfinin döyüşə hazır olduğunu, hətta döyüşmək istədiyini başa düşürük, amma Azərbaycan bilməlidir ki, onu uzunmüddətli müharibəyə də düçar edə bilərlər. Görünür, Paşinyan Bakı ilə danışıqlarda sələfi Sərkisyandan daha aqressiv olacaq. Əgər Paşinyan Moskvaya öz tələblərini açıq şəkildə söyləyə bilirsə, Bakı ilə bu, daha asan olacaq. 2019-cu ildə Rusiya üçün Qarabağdakı vəziyyəti müharibə fazasına keçirməkdənsə, bu gün olduğu səviyyədə saxlamaq vacibdir. Amma indi bunu etmək daha çətin olacaq, çünki aprel müharibəsindən sonra sülhə deyil, müvəqqəti atəşkəsə nail olundu”.

*****

Əslində Moskva Dağlıq Qarabağ konfliktinin həllində ən az maraqlı tərəfdir. Ona görə ki, problemin nizamlanmasından sonra Azərbaycanın və xüsusən də başında qərbyönlü Paşinyanın durduğu Ermənistanın Rusiya təsir zonasından sürətlə uzaqlaşacağından ehtiyat edir. Necə deyərlər, hərənin öz marağı.

**ABŞ isə konfliktin həllini istərdi, ancaq bunun üçün əlində hələ ki real təsir rıçaqları yoxdur. Rusiya imkan vermir. Demək, öncə Rusiya amili hansısa formada təsirsiz hala gətirilməlidir ki, Ağ Ev Qarabağ məsələsində təşəbbüsü öz əlinə ala bilsin. Şübhə yox ki, Rusiya buna ciddi şəkildə müqavimət göstərəcək. Hətta amerikalı tanınmış politoloq Pol Qobla görə, Rusiya Qarabağ məsələsində dominant dövlət olduğunu hamıya əyani göstərmək üçün konflikt zonasında bu il yeni toqquşmalar üçün provokasiyaya yol verə bilər. Pol Qobl da hesab edir ki, Kreml Rusiya konfliktin tam həllini istəmir:** “Ona görə ki, bu halda o, İrəvan və Bakıya təsir rıçaqlarını itirəcək. ABŞ istəyir ki, problem həll olunsun, amma onun regionda konfliktin həlli üçün kifayət qədər resursu yoxdur”.

Beləliklə, 2019-cu ildə Dağlıq Qarabağ ixtilafının həllində mümkün və real irəliləyişə ən əvvəl regionda Rusiya-ABŞ geosiyasi rəqabəti fonunda baxmaq lazım gələcək. Bu rəqabətdə zəifləyən tərəfin Dağlıq Qarabağ məsələsinə təsir imkanları da zəifləmiş olacaq. Azərbaycan heç şübhəsiz, 2019-cu ildə iki vasitəçi dövlət arasında münasibətlərin dinamikasını, bu münasibətlərdəki gəlişmələri xüsusi diqqətdə saxlayacaq ki, problemin dinc, yoxsa hərbi yolla həlli fürsətinin yarandığına əminlik hasil edə bilsin.

**Bir şey dəqiqdir ki, ABŞ və Rusiya arasında gərginlik bu il də davam edəcək və hətta artacaq. Hər halda, hazırkı proseslərin ümumi təhlili bunu deyir. Bu da o anlama gəlir ki, iki əsas vasitəçi dövlətin Dağlıq Qarabağla bağlı hansısa ortaq mövqe sərgiləyəcəyini bu il də gözləməyə dəymir...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 5 (7175) 9 yanvar 2019

# "Donuz qripi" necə yayılır, necə öldürür...

## Həkim: "Bu xəstəliyin fərqli cəhətlərindən biri də odur ki, dərhal ağciyərləri..."

**Gürcüstanda A (H1N1) virusundan ("donuz qripi") ölənlərin sayı artmaqda davam edir. Belə ki, son məlumatlara görə, Gürcüstanda bu virusdan ölənlərin sayı 10 nəfərə yüksəlib.**

Bunu Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin direktoru Amiran Qamkrelidze deyib.

O deyib ki, ölkədə qriplə bağlı vəziyyət nəzarət altındadır: "Hazırkı mərhələdə təlaş üçün əsas yoxdur. Vəziyyət tam olaraq nəzarət altındadır".

Hazırda Gürcüstanda hər 100 min sakinə 256 qripə yoluxmuş şəxs düşür. Ötən həftə ilə müqayisədə virusa yoluxma hallarında 21 azalma qeydə alınıb.

Eyni zamanda məlumatlara görə, dünyada hazırda 130-a yaxın insan bu virus səbəbindən xəstəxanalarda müalicə alır.

Məlum olduğu kimi, Gürcüstan Azərbaycanın sərhəd qonşusudur. Gürcüstanda xeyli sayda azərbaycanlılar da yaşadığı üçün həmvətənlərimiz bu ölkəyə həm turist kimi, həm də qonaq kimi tez-tez gedirlər.

Hələ ki ölkəmizdə "donuz qripi"nə yoluxma halları qeydə alınmasa da mütəxəssislər bildirirlər ki, bu virusa yoluxma riski yüksəkdir.

**"Yeni Müsavat"a danışan həkim Hüseyn Mehdiyev bildirib ki, havaların isti keçdiyi hazırkı günlərdə ölkədə müxtəlif virusların yayılması üçün şərait var:**




"Qriplər müxtəlifdir və bunlardan son dövrdə aktual olanı "donuz qripi" hesab edilir. Qonşu Gürcüstanda bu qripin yayıldığını nəzərə alarsaq, virusun Azərbaycana da keçmə təhlükəsi yüksəkdir. Nəzərə alsaq ki, yaşayış yeri Gürcüstanda, iş yeri isə Azərbaycan olan çoxlu sayda insan var, o zaman təhlükənin miqyası daha da genişdir. "Donuz qripi"nin digərlərindən elə də böyük fərqi yoxdur. Əsas fərq odur ki, bu virusa yoluxanlarda qızdırma daha yüksək olur. Adi qriplərdə olduğu kimi eyni klinik əlamətlərə, gedişə malikdir. "Donuz qripi" bir zamanlar geniş yayılan "quş qripi"ndən zəifdir. Ancaq buna baxmayaraq, yüksək qızdırma ilə qrip gələn zaman bunun adını adi soyuqlama qoyub, qızdırma salan dərmanlardan istifadə etmək olmaz. Çünki virusa yoluxma varsa, bu üsulla insan özü-özünü aldadır və qrip daha da dərinləşir. "Donuz qripi"nin fərqli cəhətlərindən biri də odur ki, dərhal ağciyərlərə fəsad verir. Orqanizmin müqaviməti ciddi səviyyədə aşağı düşür və insan pnevmoniya olur. Son dövrlərdə səhiyyənin hansı səviyyədə inkişaf etməsindən asılı olmayaraq, bu mərhələdə bəzən insanı həyatda saxlamaq olmur. Ona görə də həddindən artıq ehtiyatlı olmaq lazımdır. İlk növbədə məsələyə dövlət nəzarət etməlidir. Sərhəd-buraxılış məntəqəsində həkim nəzarəti yüksəldilməlidir. Nəzərə alaq ki, Azərbaycanda qış fəsli də özünəxas formada keçmir. Bu da virusların artmasına səbəb ola bilər. Ona görə də sərhəddə temperaturlu xəstələr müayinədən keçirilməlidir".

**H. Mehdiyev bildirib ki, "donuz qripi"nə donuzlar da daha çox yoluxurlar:** "Qriplərin adları da elə buradan götürülüb ki, həmin virusa donuzlar, "quş qripi"nə quşlar yoluxurlar. İndiki dövrdə donuz ətindən istifadə edənlər də son dərəcə diqqətli olmalıdır. Söhbət təkcə bu əti yeməkdən getmir. Ola bilər ki, kiminsə barmağında xırda açıq yara olar və o, viruslu donuz ətinə toxunar, bu zaman da qripə yoluxa bilər. Yeni virusun qanla keçməsi halı da mümkündür. Onu da deyim ki, bu viruslar əsasən soyuq havalarda yaşayırlar. İstiyə davamları yoxdur. Ümumilikdə "donuz qripi" olmayan, ağır keçirilən qriplər də var. Əgər kimsə ağır qrip keçirirsə, dərhal həkimə müraciət etməlidir. Həmin adamın qanından analiz götürülüb, müayinə olunmalıdır. "Qripdir" deyib, üzərindən keçmək olmaz. "Donuz qripi"nə yoluxan insanda ilk gündən temperatur olur, başağrı, zəiflik, halsızlıq müşahidə edilir. Xəstəliyin ikinci, üçüncü günündən zökəm əlamətləri olur. Burun tutulur, gözdən su axır. Bu xəstəliyə tutulan şəxs 7 gün ərzində yoluxdurucudur. 7 gündən sonra infeksiyanın yayılma riski azalır, amma azyaşlı uşaqlarda virus həmişə aktiv olur, xəstəlik uzun müddət yoluxdurucu qala bilir. Ona görə də müvafiq qurumlar məsələ ilə bağlı hərəkətə keçib, lazımi addımları atmalıdırlar ki, Gürcüstanda yayılan qrip Azərbaycana da keçməsin".

Müvafiq qurumların yaydıqları məlumatlara görə, ölkədə "donuz qripi"nin yayılmasının qarşısını almaq məqsədilə lazımi tədbirlər görülməkdədir. Belə ki, Dövlət Gömrük Komitəsindən bildirilib ki, sərhəd gömrük-buraxılış məntəqələrində öskürək, halsızlıq, yüksək hərarət, yuxarı tənəffüs yollarının katarı, əzələ və oynaq ağrıları və s. simtomplarla özünü büruzə verən, xəstəliyi hava-damcı yolu ilə sağlam insanlara keçirə bilən fiziki şəxslərin müəyyənləşdirilməsi üçün məsafədən insan bədəninin hərarətinin ölçülməsində istifadə olunan cihazlar (termovizorlar) vasitəsilə termometriya, tibbi sorğu, vizual müayinə və digər üsullarla tibbi-sanitariya yoxlaması həyata keçirilir.

Səhiyyə Nazirliyindən də "Yeni Müsavat"a bildirilib ki, Respublika Sanitariya-Karantin Müfəttişliyi tərəfindən sərhəd-keçid məntəqələrində - vağzallarda, "Azərbaycan Hava Yolları"nda (AZAL) ölkəyə daxil olan fiziki şəxslər üzərində tibbi müayinə aparılır, o cümlədən məsafədən insan bədəninin hərarətini ölçən "Termovizor" aparatı vasitəsilə nəzarət edilir.

❑ **Əli RAİS, "Yeni Müsavat"**

# Bakıya qar yağmamasının səbəbinə dair ilginc iddia

## Telman Zeynalov: "Hazırda ekoloji müharibə gedir, hava şəraitini dəyişən silahlar var"

**Qışın ən soyuq ayı sayılan yanvarda əhali qar gözləsə də, Hidrometeorologiya Departamentindən yağmursuz hava proqnozu ilə bağlı məlumatlar verilməkdədir. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, yanvarın 8-də Bakıda və Abşeron yarımadasında buludlu havanın üstünlük təşkil edəcəyi, hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Havanın temperaturu Abşeron yarımadasında gecə 3-5, gündüz 7-10, Bakıda gecə 3-5, gündüz 8-10 dərəcə isti təşkil edəcək.**



Ötən il də Bakıya qar yağmadığı üçün bu durum insanlar narahat edir. Başlıca səbəb isə baş alıb gedən infeksiyalar, qrip viruslarıdır. Həmçinin bəzi bölgələrə qarın az yağması da kənd təsərrüfatında məhsuldarlığın az olması baxımından narahatedici məqam sayılır.

Nəzərə çatdıraq ki, ötən il də analoji vəziyyət idi.

Bəs Bakıya, eləcə də ölkənin əksər bölgələrinə qar niyə yağmır?

**AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini, dosent Məhərrəm Həsənov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu, qlobal iqlim dəyişikliyi ilə əlaqədar baş verən məsələdir:** "Bölgələrimizə artıq qar yağır. Bakıda isə ən soyuq qış yanvar ayının ikinci yarısı və fevral ayının birinci yarısıdır. İndidən Bakıya qar yağmayacağı ilə bağlı mülahizə yürütmək düzgün deyil. Fevralın 15-nə qədər olan dövr nisbətən daha soyuq olacaq. Hazırkı hava şəraiti heç qış temperaturu deyil, çünki cənub istiqamətli hava kütlələri daxil olur. Bir neçə gündən sonra yəqin şimal istiqamətli hava kütləsi daxil olacaq və hava soyuyacaq. Ümumi fon gərək bir qədər soyuq olsun ki, qar dənəcikləri yaransın. Ancaq birmənalı olaraq demək olar ki, bu qış 2012-ci ilin qışı kimi sərt olmayacaq, nisbətən mülayim keçəcəyi gözlənilir".

**Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov da vurğuladı ki, qar yağmaması əkinçilik və kənd təsərrüfatı üçün zərərlidir:** "Ancaq qar olmasa da yağış yağır. Qar torpaqda nəmliyi saxlamaq üçündür, çünki yağış yağır və buxarlanıb gedir. Yanvarın sonu və fevral ayına ümidlərimiz böyükdür ki, qar yağacaq. Qar olsa və bir həftə torpağın üstündə qalsa, yazda və yayda yaxşı məhsuldarlıq olması üçün kifayət edir. Ancaq məsələ ondadır ki, hər 60-70 ildən bir iqlim dəyişilir. Havalar tədricən soyuyur, qar olmasa da, hava 7-8 dərəcədən yuxarı qalxmır. Həmçinin o da faktdır ki, hazırda ekoloji müharibə gedir, iqlimi, hava şəraitini dəyişən silahlar var. Amerika və Rusiya kimi böyük dövlətlər bu cür silahlardan istifadə edir, küləyin istiqamətini dəyişə bilirlər".

Əksər ekspertin ortaq fikri belədir ki, qış aylarında havaların mülayim keçməsi, qarın yağmaması iqlim dəyişmələri ilə bağlıdır. Mülayim hava şəraitinin fəsadlarını, xəstəliklərin artmasını və sairi də həyatımızda hiss edirik. Çünki qar mikroblar ölür, xəstəliklər azalır. Eyni zamanda qarın yağması dağlarda su ehtiyatının yığılması deməkdir. İstilər düşəndən sonra qar əriyir, çaylarda ilboyu su olur və insanlar ondan suvarmada istifadə edirlər. O səbəbdən yanvar və fevral aylarında qarın yağması başlıca olaraq kənd təsərrüfatı üçün faydalı sayılır.

Türkiyəli ekspertlər isə bu qənaətdədirlər ki, şəhərdə torpaq səthlərinin başdan-başa asfaltla örtülməsi, avtomobillərin hərəkəti nəticəsində yaranan istilik, o cümlədən nəqliyyat vasitələrindən çıxan tüstü, binaların qızdırılması üçün qazanxanaların işləməsi və sair şəhərin üzərində bir istilik təbəqəsi formalaşdırır. Bu səbəbdən qar yağsa belə, yerə 1-1,5 km məsafə qalmış əriyir və yağışa çevrilir. Həmçinin atmosferdə həddindən artıq karbondioksid toplanması da temperaturu artırır və qarın yaranmasına mənfi təsir göstərir.

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

**Hələ 2016-cı ilin yayında Qazaxıstanın şimalında "Qazaxıstan Azadlıq Ordusu" adlı qrup Nursultan Nazarbayevə qarşı müharibə elan etdiyini bildirmişdi.**

# Karaqanda iğtişaşları: Nazarbayevə qarşı "erməni ssenarisi"

## Politoloq: "Proseslərin siyasi çalar aldığı və rənglərin getdikcə tündləşdiyi aydındır"



Həmin il iyunun 5-də Aktobedə iki silah mağazası qarət edilmiş və ekstremistlərlə hərbçilər arasında atışma baş vermişdi.

Nazarbayev həmin hadisələrdən bir neçə gün əvvəl xalqa müraciətində adını çəkmədiyi dairələrə mesaj göndərərək Qazaxıstanda "Ukrayna ssenarisi"nin təkrarlanmasına yönəlmiş cəhdlərin qarşısının ən sərt şəkildə alınacağını söyləmişdi.

Həmin qüvvələr Elbasından qisas almaq üçün xaos yaratmağa səy göstərirlər. Bunun üçün dəfələrlə tətbiq edilmiş və iğtişaşların yaranmasına səbəb olmuş hazır "erməni ssenarisi" var.

Ona görə Karaqanda vilayətində Yeni il gecəsi, yəni 2019-cu il yanvarın 1-də "Qədim Roma" restoranında 23 yaşlı qazağı qətlə yetirən üç erməni - Malxasyan Torq Manveloviç, Malxasyan Soxhak Samveloviç və Nadırbekov Kair Xamitoviçin bu ssenarinin tərkib hissəsi olduğu mülahizələri səslənməkdədir.

Karaqanda hadisəsində erməni diasporunun adının hallanması təsadüfi deyil. Sovet ittifaqı dağılan ərəfədə də erməni etnik qrupunun nümayəndələri milli iğtişaş yaratmışdılar. Azərbaycanın Sumqayıt şəhərində, Özbəkistanın Fərqanə, Qırğızıstanın Oş şəhərində baş vermiş bütün iğtişaşlarda onlar aparıcı olublar.

Nəhayət, Qazaxıstandakı bu cinayətin, sadəcə, məişət zəminində olduğunu düşünmək sadəlövhlük olardı. Çünki söhbət cinayətdə erməni diasporunun çoxsaylı nümayəndəsinin iştirakından gedir.

Erməni diasporu və Ermənistan hakimiyyəti hadisədən ciddi narahatlıq keçirib. Ermənistan səfirliyi və Qazaxıstandakı erməni diasporu bəyanat yayıb, qətlə yetirilən gəncin ailəsinə başsağlığı verib, aksiyaçıları sakitliyə çağırıblar.

Ermənistan XİN rəhbəri də qazax həmkarı ilə telefon əlaqəsi yaradıb. Baş nazir əvəzi Nikol Paşinyan da hadisə ilə bağlı narahatlığını ifadə edib.

Maraqlıdır ki, hadisədən sonra bir qrup qazax azərbaycanlılara məxsus Bakı restoranına hücum edib, oranı dağıtmaq istəsələr də, sonradan bu obyektin ermənilərə məxsus olmadığını bildikdən sonra fikirlərindən daşınıblar.

Güman olunur ki, onlara bu ünvanı nişan verən elə ermənilər özləri olub. Bu cinayətin məişət zəminində olduğu, yoxsa siyasi müstəviyə çıxarılması üçün körükləndiyi yaxın dövrdə bilinəcək.

**Siyasi şərhçi Nəzakət Məmmədova "Yeni Müsavat"a bildirdi ki, hadisələrin siyasi motivdə, yoxsa məişət toqquşması zəminində baş verdiyini istintaq müəyyən edəcək:** "Hətta məişət qarşıdurması zəminində başlasaydı belə, proseslərin artıq siyasi çalar aldığı və rənglərin getdikcə tündləşdiyi və qarışdığı aydındır.

Ermənistan baş naziri Paşinyanın, iki ölkə xarici işlər və daxili işlər nazirliklərinin, Qazaxıstanda və Rusiyadakı erməni diasporasının qarışdığı problem şübhəsiz ki, siyasiləşib".

**Siyasi analitikin fikrincə, hadisələrin siyasi çalarına ona görə inanmaq olar ki, burada bizə tanış bir erməni dəsti-xətti görünür:**

"Əvvəlcə öz millətindən olan bir neçə şəxsi məqsədli şəkildə cinayətə alət etmək, yerli əhalidən olan şəxsləri öldürmək, millətlərarası münaqişəni qızışdırmaq, sonra isə həmin xalq ayağa qalxıb qatil ermənilərə ədalətli mühakimə tələb edəndə, ara qızışdıran ermənilərin onların torpağından çıxıb getməsini istəyəndə buna milli ədavət, ermənilərin sıxışdırılması, təqiblərə məruz qalması donu geyindirmək.

Biz bunu 1965-ci ildə Qarabağda, 1988-ci ildə Sumqayıtda, indi isə Qazaxıstanda müşahidə etmişik. Ən böyük sübutu isə 1915-ci ildə olmuşdu ki, Osmanlı imperiyasında qətl-qarətlə məşğul olan ermənilərin ara qızışdırmaması üçün onları ucqarlara göndərəndə bunun adını uydurma şəkildə "soyqırım" qoyublar.

Hazırda Qazaxıstanda da oxşar proseslər gedir. 35 nəfər erməni 4 nəfər yerli qazağa hücum edib, qətl hadisəsi törədiblər, qazaxlar haqlı olaraq buna reaksiya verəndə isə hay-küy salırlar ki, guya bu, onlara qarşı diskriminasiyadır".

**N.Məmmədovanın sözlərinə görə, ermənilərin postsovet ölkələrində - Rusiyada, Ukraynada, Moldovada, Gürcüstanda da yerli əhaliyə, eləcə də azərbaycanlılara qarşı dəfələrlə vəhşilik etməsi, onları döyməsi, qətlə yetirmələri barədə daima məlumatlar verilir:**

"Bu gün də biz ermənilərdə, həm də ABŞ-ın keçmiş səfiri R.Millzin təəccübləndiyi kimi, işğala bəraət qazandırıb başqasının torpağını qaytarmaq istəməyən Ermənistandakı ermənilərdə yox, ayrı-ayrı ölkələrdə icma şəklində yaşayan ermənilərdə də bu xüsusiyyətdən irəli gələn davranışları görürük.

35 nəfər 4 nəfərə hücum edirsə, qətl törədirsə, bu, mütəşəkkil cinayətkar dəstədir. Ermənilər bildiyimiz kimi tək postsovet ölkələrində deyil, ABŞ, Almaniya, Fransada kriminal işlərlə məşğul olur, mafiya yaradaraq cinayətlər törədirlər.

Hüquq dəyərlərinin olmadığı yerdə kriminal işə düşür və bu, ermənilərin xarakterik cəhətidir".

**Ekspert məsələnin siyasi tərəfinə gəlincə, Qazaxıstanda erməni icmasından istifadə etməklə aranı qarışdırmaq versiyası da istisna etmir:**

"Belə ki, Qazaxıstan bir türk dövlətidir, bizim Xəzər qonşumuzdur. Qazaxıstanın Azərbaycan və Türkiyə ilə çox yaxşı münasibətləri var. Qazaxıstan prezidenti Nazarbayev Azərbaycan prezidenti ilə çox yaxşı səmimi münasibətlər saxlayır.

Üstəlik, Qazaxıstan son dövrdə Ermənistana qarşı aşkar mövqeyi ilə seçilir. Bu, xüsusən şəxsən Paşinyana qarşı mövqedə, eləcə də Ermənistan namizədinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında Qazaxıstan və Belarus tərəfindən rədd olunmasında özünü büruzə verdi. Bu amillər də ermənilərin Qazaxıstanda iğtişaş yaratmasına səbəb ola bilər.

Daha bir versiya ondan ibarətdir ki, Ermənistanın indiki prezidenti Armen Sərkisyanla Qazaxıstan prezidentinin qızı və siyasi varisi hesab olunan Dariqa Nazarbayeva arasında geniş biznes münasibətləri var.

Ermənistan prezidentinin Nazarbayevin qızı nüfuzlu Dariqa ilə çox yaxın əlaqələri mövcuddur.

2013-cü ildə Armen Sərkisyanın şəxsi dəvəti ilə Ermənistana gələn ingilis şahzadəsi Çarlzın səfəri zamanı Dariqa da İrəvanda idi.

Məhz Armen Sərkisyanın tövsiyəsinə əsasən Dariqa hazırda Qazaxıstanın bütün telekanallarını özündə birləşdirən media holdinq yaradıb. Ermənistanın yeni prezidenti həmin holdinqdə 5 faiz səhmlərə sahibdir.

Sərkisyan habelə Dariqanın 2002-ci ildən hər il Astanada keçirdiyi və təşkilat komitəsinə sədrlik etdiyi Avrasiya Media Forumunun əsasını qoyan şəxsdir.

Berdimuhəmmədovla da yaxşı münasibətləri olan Sarkisyan hələ biznesmen olan vaxtı onunla Aşqabad dəniz limanının inşası, sement zavodlarının tikilməsi, mədənçıxarma və kommunikasiya tenderlərində iştirak barədə razılığa gəliblər".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# "Facebook" müxalifəti ənənəvi partiyaları tormozlayıb?

## Pənah Hüseyn: "Facebook" günümüzün gerçəkliyidir"
## Natiq Cəfərli: "Hansı partiya işini ancaq virtualdan qurmağa çalışacaq, getdikcə marginallaşacaq"
## Xəzər Teyyublu: "Son sözu virtual yox, real həyatdakı davranışlar deyəcək"

**Azərbaycanda etirazlar küçələrdən virtuala transformasiya olunub. 2010-cu ildən başlanan bu proses son dövrlərdə artıq institutlaşmaqdadır. Bu etirazların praktik nəticəsi 2013-cü ildə "Əsgər ölümlərinə son" şüarı ilə gerçəkləşmişdi.**



Sosial şəbəkələrdə təşkilatlanan gənclik Fəvvarələr meydanına axışmışdı. İkinci belə bir nümunə yoxdur və insanlar "facebook" partiyası qurublar, sosial şəbəkələrdə etiraz edirlər, kampaniya başladırlar, hökumət rəsmilərinin səhifələrinə açıq şəkildə yazırlar.

Bu trendi bloqçu Mehman Hüseynova yeni cinayət işi açılması ilə bağlı sosial şəbəkələrdəki etirazlarda görmək olar. Artıq bir "facebook" müxalifəti yaranıb.

**Azərbaycan Xalq Partiyası (AXP) sədri Pənah Hüseyn "Yeni Müsavat"a bildirdi ki, "facebook" günümüzün gerçəkliyidir:** "Ancaq mən real mübarizənin, reallıqda addımlar atılmasının tərəfdarıyam".

**ReAL Partiyasının icraçı katibi Natiq Cəfərlinin sözlərinə görə, son 5 ildə dünyada sosial şəbəkələr təşkilatlanmaq üçün asan yerə çevrilib:**

"Hətta demokratik ölkələrdə təşkilatlanmaq üçün sosial şəbəkədən istifadə edirlər. Məsələn, Fransada "sarı jiletlilər" sosial şəbəkə üzərindən təşkilatlanırlar.

Bizdə isə problem ondan ibarətdir ki, enerji "facebook"a yığışır, bunu reallığa büruzə vermək olmur. Partiyaların strategiyası sosial şəbəkənin pozitiv gücündən istifadə üçün yollar tapmaq olmalıdır. Partiyalar bunun bir mexanizmini qurmalıdır.

Siyasi güclər bilməlidirlər ki, sosial şəbəkələr platformadır, həll yolu deyil. Kim "facebook"a platforma kimi baxacaq, onun pozitiv gücündən istifadə edəcək, o da partiyanın sosial şəbəkə üzərindən təşkilatlanma işini qura biləcək, kim partiya fəaliyyətini ancaq virtualdan qurmağa çalışacaq, getdikcə marginallaşacaq".

**N.Cəfərli hesab edir ki, virtual şəbəkələrin dağıdıcı güc olması ehtimalı da var:** "Çünki bu sistem bir mərkəzdən idarə olunmur. Bu faktordan xarici güclər istifadə edə bilər.

Necə ki, Amerika kimi dövlətdə seçkinin nəticələrinə Rusiya sosial şəbəkə üzərindən təsir edə bilib. Azərbaycan kimi kiçik ölkələrdə bunu reallaşdırmaq daha asan ola bilər.

Ona görə siyasi partiyalar yeni dövrün tələbinə uyğun olaraq, sosial şəbəkələrin pozitiv tərəflərindən istifadə etmək formasını tapmaqla yanaşı, neqativləri aradan qaldırmağın həlli yollarını da müzakirə etməlidir".

**KXCP İdarə Heyətinin üzvü Xəzər Teyyublunun fikrincə, sosial şəbəkələr insanların bir-biri ilə təmas qurma mərkəzidir:**

"İnkişaf etmiş ölkələrdə "facebook" pozitiv, həyata yeniliklər gətirən münasibətlər qurmaq üçün istifadə olunur. Bizdə əksinədir. Sosial şəbəkəni siyasi meydan hesab edirlər, enerji gedir, vaxt itkisi olur".

**X.Teyyublu sosial şəbəkələrin ictimai rəyə təsirinin olduğunu təsdiqləyir:** "Nə vaxtsa virtualda oturan narazı elektoratın etirazları küçələrə daşıması mümkün ola bilər. Amma bunun üçün strategiya olmalıdır.

Nəzərə alınmalıdır ki, nə qədər "facebook" müxalifəti olsa da, sosial şəbəkələrə nəzarət, basqı var. Situasiyaya uyğun olaraq, siyasi prosesi sosial şəbəkələr idarə edə bilər. Bu məsələdə gəncliyin rolu daha çoxdur.

Partiyalar indiki halda sosial şəbəkələrdə açdıqları qruplar, səhifələrlə müəyyən mənada narazı elektoratı yanına çəkməyə çalışır. Amma son sözü insanların virtual yox, real həyatdakı davranışlar deyəcək".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 5 (7175) 9 yanvar 2019

# Yeni binalara qaz çəkilməməsinin arxasındakı səbəblər

## Ekspert: "Şirkətlər çoxmərtəbəli binaları tikib satır, pulu aldıqdan sonra kənara çəkilirlər"

**Bakıda yeni tikilən çoxmərtəbəli binaların əsas problemlərindən biri də qazlaşdırma ilə bağlıdır. Belə ki, 10 ilə yaxındır istismara verilmiş binalar var ki, hələ də sakinləri qaz əvəzinə elektrik enerjisindən istifadə edir. Qış fəslində isə bu insanların həm əziyyəti, həm də xərcləri 2-3 qat artmış olur.**

Yeni tikilidə qazlaşdırılmayan mənzildə istilik və məişətdə istifadə məqsədilə istehlak etdikləri elektrik enerjisinin xərci ayda orta hesabla 180-200 manata başa gəlirsə, qazla təmin edilən mənzildə bu rəqəm 40-45 manat civarındadır. Bununla yanaşı, qazlaşdırılmayan binalarda mənzillərin satışı və kirayəyə verilməsi zamanı da problem yaşanır. Bu amil satışa birbaşa təsir edir. Qeyd edək ki, sözügedən binalarda sənədləşmə işlərinin aparılması və mənzil sahiblərinə "kupça"nın verilməsi də problemli məsələdir. Paytaxtda belə binaların sayı həddindən artıq çoxdur. Bəs bu binalara niyə qaz verilmir? Səbəb nədir?

**Mövzunu "Yeni Müsavat"a şərh edən "MBA Group" konsaltinq şirkətinin baş direktoru, daşınmaz əmlak sahəsində ekspert Nüsrət İbrahimov bildirdi ki, səbəb həmin binaların dövlət qəbul komissiyasından keçməməsi və istismara yararlığı ilə bağlı müvafiq sənədlərinin olmamasıdır:** "Yeni çoxmərtəbəli binaların təməli qoyularkən sənədləşmə işləri qaydasında aparılmadığı üçün bu gün də həmin binalara qaz verilmir. Sənədləşmə işləri aparılan binaların əksəriyyətində isə tikinti zamanı layihədən kənara çıxma halları olub. Bu kənarlaşmalar, əksik qalan sənədləşmə işləri yenidən aparılmalıdır. Yalnız bundan sonra Dövlət Qəbul Komissiyasına təhvil vermək lazımdır. Sadəcə olaraq, həmin binaları tikən şirkətlər öncə gedib Bakı Şəhər İcra Hakimiyyətindən akt götürməli idilər. O akt üzrə bütün aidiyyəti qurumlarla, Fövqəladə Hallar Nazirliyindən, Arxitektura və Şəhərsalma Komitəsindən, "Azərsu", "Azərişıq", "Azəriqaz" və digər qurumlarla razılaşdırmalar aparmalı idilər. Daha sonra həmin binanın istismara qəbul aktını alıb mənzil mülkiyyətçilərinə müvafiq hüquqi sənədləri təqdim etməli idilər. Ancaq indi şirkətlər bunu etmirlər, çoxmərtəbəli binaları tikib satır, pulu aldıqdan sonra kənara çəkilirlər. Ona görə də binalar təhvil verilmir və onlara qaz xətləri də çəkilmir".



"Azəriqaz" QSC-dən də bu məsələ ilə bağlı dəfələrlə mətbuata açıqlama verilib və bildirilib ki, Bakı şəhərində tikintisi başa çatan yaşayış binaları dövlət qəbul komissiyası tərəfindən istismara qəbul edilibsə, binanın qazla təminatı üçün sözügedən quruma müraciət olunubsa, qazın çəkilməsində hər hansı problem yaranması mümkün deyil.

Məlumat üçün qeyd edək ki, dövlət qəbul komissiyasının tərkibinə Bakı Şəhər Tikintiyə İcazə və Qeydiyyat Müfəttişliyinin nümayəndəsi ilə yanaşı, mütləq qaydada sifarişçinin (sahibkarın), podratçının, subpodratçının, layihəçinin, istismarçının, Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi Baş Dövlət Tikinti Müfəttişliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Səhiyyə Nazirliyinin, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyinin, rayon icra hakimiyyətinin və tələb olunan hallarda müvafiq təşkilatların nümayəndələri daxildir.

Yaşayış binalarının istismara qəbulu aktı bütün komissiya üzvləri tərəfindən imzalandıqdan sonra təsdiq olunur. Yalnız tikintinin başlanması və aparılmasına icazə sənədləri olan, layihə sənədləri dövlət ekspertizasından keçən, təsdiq edilən, tikintisi zamanı mövcud norma, standart və qaydalara riayət edilməsinə dair Fövqəladə Hallar Nazirliyinin müsbət müayinə rəyi verilən və istehsalat sənədləşdirilməsi başa çatdırılan yaşayış binaları istismara qəbul edilə bilər.

Qeyd edək ki, binaların rəsmi qaydada dövlət qeydiyyatından keçməməsinin səbəbləri arasında korrupsiya amilinin rol oynadığı da hallanmaqdadır. İddialara görə, Bakı Şəhər İcra Hakimiyyəti bir binanı qeydiyyatdan keçirmək üçün sahibkardan həmin binanın 15 faizini ya mənzil, ya da nağd pul şəklində tələb edir.

Həmçinin qanunvericiliyin tələbinə görə, tikinti şirkətləri respublika ərazisində tikdikləri mənzillərin 10 faizini dövlət qurumuna verməlidirlər. Bu mənada binaların istismara qəbul edilməməsi MTK-ların da işinə yarayır, onlar həmin 10 mənzili də sataraq əlavə vəsait əldə edirlər. Bununla yanaşı, sənədləşmə işləri aparılmadığından həmin binadakı mənzillərin alış-satışı zamanı sənədləşmədə MTK birbaşa iştirak edir və bu prosesdə müəyyən məbləğ əldə edir. Halbuki binalar istismara qəbul olunsaydı, bu vəsait dövlət büdcəsinə də daxil ola bilərdi. Bu, mənada hökumət binaların istismara qəbulu prosesini sürətləndirməkdə maraqlı olmalıdır. Bu həm vətəndaşların sənədləşmə və təbii qazla təminatı problemini aradan qaldırmış olar, həm də alqı-satqı zamanı sözügedən vəsait məhz dövlət büdcəsinə ödənilər. Eyni zamanda qanunvericilikdə nəzərdə tutulan mənzillərin 10 faizinin Dövlət Mənzil Fonduna verilməsi də bu fondun zənginləşməsinə səbəb olar.

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Müharibə veteranının qızının evini dələduzluq yolu ilə əlindən alıblar

## Solmaz Abbasova: "Atamın kor olmasından istifadə edərək, ona aid bağ evinin 1 otağına imza atdırıb..."

**Sabunçu rayonu, Bakıxanov qəsəbəsində kirayə yaşayan Abbasova Solmaz Həsən qızı, 1-ci qrup ruhi xəstə olan Abbasov Emin ilə redaksiyamıza gələrək şikayətlə bağlı bizə müraciət edib.**





Onun sözlərinə görə, əlində bütün sənədlərin olmağına baxmayaraq, qanunsuz olaraq evini başqa bir şəxsə veriblər: " Atam, Əliyev Həsənbala Qüdrət oğlu Böyük Vətən Müharibəsinin veteranı olub. Rütbəcə polkovnik idi. 2009-cu ildə rəhmətə gedib. Sağlığında müharibədə göstərdiyi şücaətə görə mərhum prezidentimiz Heydər Əliyev ona Albalı qəsəbəsi 901 saylı ünvanında özəlləşdirilməmiş, 12 sot torpaq və 1 otaqlı ev bağışlamışdı. Rəhmətə gedəndən sonra isə qanuni olaraq, atamın yeganə varisi mənəm. Anam Mxitarova Edis yəhudidir. Xəstəliyi ilə əlaqədar anam tez-tez İsrailə gedirdi. Belə bir vəziyyətdə, 2004-cü ildə mənim və anamın xəbəri olmadan Quliyeva Zenfira Sədrəddin qızı atamın kor olmasından istifadə edərək, ona aid bağ evinin 1 otağına imza atdırıb və həmin evə yiyələnib. Hətta 2015-ci ildə qanuni vərəsə sənədi əlimdə olduğu halda, 2017-ci ildə özəlləşdirilməmiş 12 sot torpağı da Zemfira Quliyevaya satıblar. Məsələdən xəbər tutandan sonra bu qanunsuzluğun qarşısını almaq üçün məhkəmələrə müraciət etmicəm".

**İşinin Apelyasiya Məhkəməsində olduğunu bildirən hikayətçi ədalətli qərar veriləcəyinə inanmır:** "Hazırda işim Apelyasiya Məhkəməsinin hakimi Xumar Mərdanovun icraatındadır. Yanvarın 15-də baş tutacaq Apelyasiya Məhkəməsinə də ümidim yoxdur. Çünki Apelyasiya Məhkəməsinin sədri İman Nağıyev, 2006-cı ildə hakim Qəhrəman Allahverdiyev saxta qərarla evimi əlimdən alanda, onun yanında məhkəmə iştirakçısı olub. Yəni İ. Nağıyev də saxta qərarların iştirakçısıdır və o, bu səbəbdən məni qəbul etmir".





AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT TORPAQ VƏ XƏRİTƏÇƏKMƏ KOMİTƏSİ
BAKI ŞƏHƏR ŞÖBƏSİ

Azərbaycan Respublikası
2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin
hakimi ...

İcraatınızda olan iş № 2in(82)-409/2012 saylı 02.07.2012-ci il tarixli mülki işlə bağlı sərəncamınız icra olunması məqsədi ilə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Bakı şəhər şöbəsinə göndərilmişdir.

Sərəncam icra olunarkən məlum olmuşdur ki, Əliyev Həsənbala Qüdrət oğlunun adına Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə hazırlanmamışdır.

Müdir N.A.Məlikov

**Vəziyyətinin ağır olduğunu bildirən Solmaz Abbasova mərhum prezidentimizin dəyər verdiyi müharibə veteranına edilən hörmətsizlikdən gileyləndi:** "10 ildən çoxdur ki, varisi olduğum evdə yaşamalı olduğum halda, 1-ci qrup ruhi xəstə oğlumla kirayələrdə yaşayıram. Əvvəllər küçə və qəbiristanlıqlarda, indi isə məcburiyyət qarşısında İsraildə yaşayan anam və bacımın maddi yardımı ilə dolanıram. Artıq mənə və atama edilən bu hörmətsizliyə dözə bilmirəm. Belə olan halda, əgər mən haqsız duruma düşsəm, Sabunçu Məhkəməsinin saxta qərarını, 1941-1945-ci il Böyük Vətən Müharibəsində göstərdiyi qəhrəmanlığa görə verilən veteran vəsiqəsini, ordenlərini ulu öndərimizin məzarı üzərinə qoyacağam".

**Zərəsiz durumda qalan S.Abbasova dövlət qurumlarından yardım etməyini istədi:** "Təəssüf ki, Apelyasiya Məhkəməsinin hakimləri və Ali Məhkəmə hakimləri əvvəldən axıra qədər işə birtərəfli yanaşdılar. Əlimdə təsdiq edən qətnamə olmasına baxmayaraq, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti mənim bütün hüquqlarımı pozaraq, evimi dələduz Zemfira Quliyevaya satdı. Son çarə olaraq mən bir müharibə qəhrəmanının qızı olaraq rəsmilərdən düşdüyüm bu vəziyyətdən çıxmaqda mənə kömək etmələrini xahiş edirəm".

**Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **ELÇİN, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 5 (7175) 9 yanvar 2019

# Tramvay Bakıya qayıdır: bəs hansı yolla?

## Ekspert: "İlk olaraq köhnə tramvay yollarını bərpa etmək lazımdır"

**Təsdiq edilən "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019 - 2023-cü illər üçün Dövlət Proqramı"nda yollarda təhlükəsizliyin təşkili əsas məqam kimi vurğulanır. Həmçinin velosiped yollarının çəkilməsi, tramvay xətlərinin bərpasının araşdırılması tövsiyə edilən yeniliklərdəndir.**

Dövlət proqramında qeyd edilir ki, müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi nəticəsində 2013-2017-ci illərlə müqayisədə 2023-cü ilin sonunadək yol-nəqliyyat hadisələrində ölüm sayının 30 faiz, yol-nəqliyyat hadisələrində sağlamlığına ağır və ya az ağır zərər vurulan şəxslərin sayının 30 faiz, yol-nəqliyyat hadisələrinin ümumi sayının 30 faiz, yol-nəqliyyat hadisələrində uşaq ölümü hallarının 50 faiz azaldılması planlaşdırılır.

İctimai nəqliyyatda gediş haqları qaldırıldıqdan sonra Bakıda tramvayların bərpası istiqamətində tez-tez müzakirələr aparılır. Hazırda da qəbul edilən proqramdan irəli gələrək, Bakıda tramvay xətlərinin çəkiləcəyi müzakirədədir. Bakıda əksər yol kənarlarında tikililər ucaldılıb, bəs belə olan halda tramvay xətləri necə çəkiləcək?

Məlumat verək ki, 19-cu əsrin sonlarında Bakıda neft sənayesinin inkişafı ictimai nəqliyyat növünün inkişafına tələbat yaratdı. 1889-cu ildə yeganə olaraq şəhər nəqliyyatı üçün Bakıda "konqa" (polad rels xətti ilə işləyən fayton) tikilmişdi. Lakin nə faytonlar, nə də konqo neft paytaxtının tələbatını ödəmirdi.

1903-cü ildə Bakıda elektrik tramvay xətlərinin salınması barədə Şəhər Dumasına təklif gəldi. Bu təklifin reallaşması 20 il ləngidi. Nəhayət, 1922-ci ildə Bakı Soveti layihəni reallaşdıra bildi. Şəhərdə tramvay xətlərinin tikintisinə başlandı.

Şəhərdə ilk dəfə 1924-cü il fevralın 8-də elektrik-tramvay yolu istifadəyə verildi. Bu xətt Azneft yolu ilə Dəmir Yolu Vağzalını birləşdirirdi.

2012-ci ilin fevral ayında




Azərbaycan hökuməti Bakıda tramvay xəttinin bərpa ediləcəyini açıqlayıb. Bildirilib ki, "Ağ Şəhər" layihəsi reallaşdıqdan sonra tramvay xətti bərpa ediləcək. Belə ki, layihə çərçivəsində bulvar boyu tramvay xətti qurulacaq. Amma tramvayın Bakının əsas yol qovşaqlarını əhatə edəcəyi gözlənilmir.

**"Yeni Müsavat"a danışan nəqliyyat eksperti İlqar Hüseynov bildirib ki, tramvay xətlərinin bərpası mümkündür:**

"Artıq dünyanın hər yerində təbii yanacaqla idarə olunan nəqliyyat vasitələrinin istifadəsindən imtina etməyə başlayıblar. Sözsüz ki, bunu əvəz edən elektrik mühərrikli nəqliyyat vasitələridir. Eyni zamanda Avropada sərnişindaşımaya tramvay və trolleybusların tətbiqi də geniş vüsət alıb. Burada ilk növbədə tıxacların aradan qaldırılması və insanların tez və vaxtında iş yerlərinə çatdırılması məsələsi dayanır. İkinci növbədə isə şəhərin ümumilikdə ekoloji tarazlığının pozulması ilə bağlı narahatçılıqların aradan qaldırılması məsələsi var. Bilirik ki, tramvay və trolleybuslar işləyən zaman ekoloji mühit, atmosferdə çirklənmələr az olurdu. Ona görə də böyük şəhərlərdə ekoloji baxımdan bu nəqliyyat vasitələrinə böyük önəm verilir. Eyni zamanda məlum olduğu kimi digər nəqliyyat vasitələrinin gediş haqlarında bahalaşmalar mövcuddur. Bu, vətəndaşlar üçün kifayət qədər əlçatan deyil. Gediş haqlarının qaldırılması, ailəsindən hər gün dərsə, işə gedənlər üçün əslində böyük bir xərcə səbəb olub. Təbii ki, gediş haqlarının qaldırılmasının da səbəbləri var. Çünki bu nəqliyyat vasitələrində yanacaq işlənilir ki, ilk növbədə onun da qiymətində bahalaşma olub. O baxımdan da tramvaylar sərnişindaşımada sərfəlidir".

**Ekspert bildirib ki, əslində Bakıda tramvayların hərəkəti üçün lazım olan yol mövcuddur:** "Hesab edirəm ki, ilk növbədə vaxtilə Bakının daxilində mövcud olan, sonradan isə dağıdılmış tramvay yollarının bərpasından söhbət gedə bilər. "Azadlıq" prospektində əhəmiyyətli dərəcədə yolun infrastrukturu imkan verir ki, tramvay xətləri çəkilsin. İndiki ABŞ səfirliyinin yanına qədər bu yolları uzatmaq mümkündür. Eyni zamanda 1-ci mikrorayondan Nərimanov istiqamətinə hərəkət edən tramvay yollarını bərpa etmək olar. Qovuşan yol ötürücülərinin salınması isə hazırda bəzi problemlər yaradıb. O baxımdan da hesab edirəm ki, burada da müasir qurğulardan istifadə edərək, maneələri aradan qaldırmaq olar. İlk olaraq hesab edirəm ki, sovetlər dönəmində mövcud olan yolların bərpasını aparmaq daha məqsədəuyğundur. Sərnişinlərin hərəkəti daha çox "Azadlıq" prospektində müşahidə edilir və bu prospekt Bakının mərkəzini Binəqədi ilə birləşdirir. Ona görə də həmin prospektdə tramvay yolları salına bilər. Layihənin iqtisadi tərəfləri də ciddi şəkildə hesablanmalıdır. Öyrənilməlidir ki, bu, nə qədər səmələri layihə ola bilər. Daha sonra qərar vermək olar. Sözsüz ki, layihəyə nə qədər vəsait xərclənməsinə baxmayaraq, tramvaylar fəaliyyətə başlayarsa, yollarda xeyli problem aradan qaldırılar".

❑ Əlì RAÌS,
"Yenì Müsavat"




## Bakıdakı parkinqlərə yeni qiymətlər qoyulacaq -rəsmi

**Ölkə başçısının 6 iyulda imzaladığı fərmanla Bakı şəhərinin inzibati ərazisində, parklanma, habelə dayanma və durmanın qadağan edildiyi yerlərdə inzibati xəta törədilməsinə görə elektron protokolların tərtib edilməsi məqsədilə foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin quraşdırılması Bakı Nəqliyyat Agentliyinə (BNA) həvalə edilib. Bu fərmana görə, indiyədək Bakı Şəhər İcra Hakimiyyətinin səlahiyyətində olan parkinqlər də BNA-nın nəzarətinə verilib. Amma hər bir parklanma yerində sürücülər saatından asılı olaraq, 1 manatdan başlayan ödənişlər etməyə vadar edilir.**

Ötən ilin oktyabr ayının sonlarından başlayaraq isə parklanma qaydalarının pozulmasına görə cərimələrin yazılmasına da başlanılıb.

Yanvarın 8-də isə Bakı şəhərində parkinqlərdə qiymətlərin artırıldığına dair məlumat yayılıb. Sosial şəbəkə istifadəçiləri "Qış Parkı" və Azadlıq meydanının altında yerləşən parkinqlərdə qiymətlərin 2 dəfə artırıldığını qeyd ediblər:

""Qış Parkı"nda yerləşən parkinqdə 9:00-21:00 radələrində maşın saxlamaq üçün aylıq abunə haqqı 30 manatdan 60 manata qaldırılıb. Hökumət Evi yaxınlığında isə parkinqdə aylıq abunə haqqı artıq 80 manatdır".

**Məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat xidmətinin rəhbəri Mais Ağayev modern.az-ın sorğusuna cavab olaraq bildirib ki, hələlik təmsil etdiyi qurum tərəfindən qiymət siyasəti müəyyən edilməyib:** "Hazırda əsas diqqət Füzuli və Mirzağa Əliyev küçələri arasında, eyni zamanda "Neftçilər" prospekti - Hökümət evinin qarşısında yerləşən yeraltı avtomobil qarajlarında təhlükəsizlik və digər vacib məqamlarla bağlı zəruri infrastrukturun yaxşılaşdırılmasına yönəldilib. Bu istiqamətdə ciddi iş aparılmaqdadır".

BNA rəsmisi qeyd edib ki, bu işlər yekunlaşdıqdan sonra qiymət siyasətinə baxılacaq: "Bu işlər yekunlaşdıqdan sonra qiymət siyasətinə də baxılacaq. Tariflərlə bağlı yeni bir qərar olacağı halda təbii olaraq ictimaiyyətə əvvəlcədən məlumat veriləcək".

# Un bahalaşsa da, çörək əvvəlki qiymətə olacaq

## Azərbaycanda unun bahalaşması qonşu ölkələrdə bu məhsulun qiymətinin qalxması ilə bağlıdır

**Son günlər respublika ərazisində satılan müxtəlif markalardan olan unun qiymətində bahalaşma müşahidə olunur. Yanvarın əvvəlində 3-4 qəpiklə başlayan bahalaşma artıq bir neçə manata yüksəlib.**

İstehsalçı şirkətlər bildirir ki, 50 kiloqramlıq "Mehriban" unu 27 manatdan 28.50 manata, "Sarı Sünbül" unu 25 manat 50 qəpikdən 27 manat 50 qəpiyə, "Karmen" unu isə 25 manatdan 27 manatadək bahalaşıb.

Ceyranbatan sakini Mayıl Ağaxanov isə deyir ki, əslində qiymətlərdəki artım istehsalçı şirkətlərin dediyi rəqəmlərdən çoxdur: "Əvvəllər 21 manata aldığımız 45 kq-lıq "Karmen" ununun kisəsini dünən 25 manat 20 qəpiyə aldım. Qiymət artımı düz 4 manat 20 qəpik təşkil edirdi".

Bəzi şirkətlər qiymət artımını dünya bazarındakı bahalaşma ilə əlaqələndirsə də, bununla razılaşmayanlar da var.

**Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov məsələ ilə bağlı modern.az-a bildirib ki, ölkədə taxıl məhsullarının becərilməsi dövlət tərəfindən subsidiyalaşdırılır:** "2018-ci ildə ölkədə 57 rayon üzrə 391,800 istehsalçıya 1211,1 min hektar əkin



sahəsi və çoxillik əkmələrin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə cəmi 83886,8 min manat məbləğində yardım verilib. Ötən il ölkədə qarğıdalı ilə birlikdə ümumilikdə 3,29 milyon ton taxıl istehsal olunub ki, bu da 2017-ci illə müqayisədə 12.6 faiz çoxdur. Taxıl istehsalının əvvəlki illərlə müqayisədə artması göstərir ki, qıtlıqla bağlı iddiaların əsası yoxdur".

V.Hüseynov qeyd edib ki, Kənd Təsərrüfatı Nazirliyi un emalı prosesində iştirak etmədiyindən, qiymət məsələsinə cavabdehlik daşımır.

**İqtisadçı Natiq Cəfərli bildirib ki, Azərbaycanda unun bahalaşması qonşu ölkələrdə bu məhsulun qiymətinin qalxması ilə bağlıdır:** "Rusiya, Qazaxıstan, Ukraynada taxılın qiymətində 5-10 faizədək artım müşahidə olunur ki, bu da unun bahalaşmasına təsir edib. Bizim xaricdən aldığımız taxıl, yaxud unu yerli taxıla qatmaq hesabına çörək hazırlanır. Təəssüflər olsun ki, Azərbaycanda istehsal olunan taxılın keyfiyyəti o qədər də yüksək deyil. Ona görə də xarici ölkələrdən alınmış taxılla qarışdırılmalıdır ki, hazırlanan çörək keyfiyyətli olsun. Hazırda unun qiymətlərindəki artım məhz bununla bağlıdır".

**Ekspert hesab edir ki, unun qiymətindəki artım çox olmadığından çörək bahalaşmayacaq:** "Həm də uzun illərdir bizdə belə praktika mövcuddur ki, çörəyin qiyməti qaldırılmır, çəkisi aşağı salınır. İndiki məqamda da çörəyin bahalaşmasının ciddi etiraz doğuracağı nəzərə alınaraq, çəkinin azaldılmasına çalışacaqlar".

N.Cəfərli qeyd edib ki, yeni il ərəfəsində şirniyyatların da qiymətində müəyyən dərəcədə bahalaşma hiss olunub:

"Bunu həm unun bahalaşması, həm də bayramla əlaqələndirmək olar. Amma ümumilikdə taxıl və unun qiyməti ciddi şəkildə qalxmadığından, Azərbaycanda da qeyd edilən məmulatların kəskin bahalaşması gözlənilmir".

# YENİ MÜSAVAT

**Son səhifə**

*N 5 (7175) 9 yanvar 2019*


# Evi sürüşdü, cərimə ödədi

Britaniyanın Lankaşir qraflığı rəhbərliyi Rotenstol şəhəri sakininə cərimə yazıb. Buna səbəb həmin şəxsin evinin torpaq altına sürüşməsi olub. Ötən ilin aprelində Ponke Mia adlı şəxs evinin döşəməsində böyük bir dəlik görüb. Bu dəlik isə evin sürüşməsinə səbəb olub. O, bu barədə yerli hakimiyyət nümayəndələrinə xəbər verib. Ponke Mia əmin olub ki, evindəki bu problemin qismən də olsa yoluna qoyulmasında yerli hakimiyyət nümayəndələri yardım etməlidilər. Amma qraflığın məmurları iddia ediblər ki, bu halın yaranmasında ev sahibi birbaşa günahkardır. Kişiyə 55 min funt sterlinq məbləğində cərimə yazıblar. Əks halda, onun evi sökülləcək.



Bununla belə, şəhər administrasiyası iddia edir ki, evin hissə-hissə təmirindən sonra qonşu evlərə də ziyan dəymə təhlükəsi var. Onların fikrincə, evin təmiri ancaq o halda mümkündür ki, britaniyalının evi köçürülsün.



## Banan yeyib arıqladı, dünyada məşhurlaşdı

Loni Jane Antoni adlı qadın meyvə dietinin köməyi ilə arıqladığı üçün internetdə məşhurlaşıb. Bananlardan kokteyl hazırlayan, hər gün banan yeyən qız qısa müddətdə arıqlamağı bacarıb. “Freelee the Banana Girl” adından istifadə edən Loni adlı qız kokteylə ananas və başqa meyvələr də əlavə edir. Hər gün 51 banan yediyi videoları internetdə paylaşan Loni hər gün ən azı 10 banan yeməyi məsləhət görür. Avstraliya mediası qız haqqında yayılan məlumatları dərc etdiyi üçün o daha da məşhurlaşıb. Ölkənin ən məşhur həkimləri qızı sərt şəkildə tənqid edərək, bu yolla arıqlamağa çalışanlara xəbərdarlıq ediblər.



## İsveçdə marmeladı da qadağan ediblər, əti də...

İsveç kralı XVI Qustav əhaliyə ət və marmelad məhsullarından daha az istifadə etməyi məsləhət görüb. O bildirib ki, bu, sağlamlıq və ekologiya baxımdan olduqca vacib addımdır: “Mən ət istehsalı ilə məşğulam, amma özüm qırmızı ət yemirəm. Bu da tibbi və ekoloji səbəblərə görə belədir. Ət yeyilməsi təbii ki, faydalıdır, amma hər gün qanlı bifşteksi mədəyə ötürmənin heç bir faydası yoxdur. Monarxın dediyinə görə, özü 1970-ci illərdən bəri kənd təsərrüfatı ilə məşğuldur, eyni zamanda insan orqanizmi ilə bağlı bütün biliklərə malikdir: ”Ona görə də bir daha deyirəm ki, “hər şeydən az-az yemək” prinsipini unutmaq olmaz".

# Xərçəng xəstəsi xəstəxananı yandırdı

Uzun illərdən bəri xərçəng xəstəsi olan tayvanlı Li Çin Hin müalicə olunduğu xəstəxananı yandırıb. Hadisə Tayvanın Taynan şəhərində baş verib. Xərçəng xəstəsi olan qocaların müalicə olunduqları xəstəxanada gecə saatlarında başlanmış yanğın səhərədək davam edib. Yanğında 12 xəstə yanaraq həlak olub, 60 pasiyent ağır yanıq xəsarətləri alıb. 67 yaşlı Linin yanğının səbəbkarı olduğunu müşahidə videokameraları ilə çəkilmiş görüntülər sübut edib. Çılpaq halda yanğından qaçmağa çalışan xərçəng xəstəsi Lin xəstəxananın anbarında gizlənmişdi.

O, polisə verdiyi ifadəsində bildirib ki, tənziflərə və adyallara od vuraraq paltar anbarına atıb. Yanğından sağ çıxan pasiyentlərin çoxu 80-90 yaşlılardır.



## 41 yaşlı kişi evə gəldi və öz yas mərasimində iştirak etdi

Braziliyda keçmiş hind kinolarındakına bənzər mənzərə yaşanıb. Alagoinhas şəhərində Jose Marcos Araujo adlı kişi şəhər xəstəxanasının morqunda ona göstərilən bir cəsədi səhv olaraq 41 yaşlı “moyka” işçisi olan qardaşınınkı hesab edib və polislərə də bu cür məlumat verib. Ölən adamın qardaşı olduğunu düşünən Araujo daha sonra cəsədi xristian ənənələrinə uyğun dəfn etmək üçün anasının evinə aparıb. Evdə cənazə mərasimi keçirildiyi vaxt küçədə gəzən Gilberto isə bir dostundan özünün cənazə mərasiminin keçirildiyini öyrənib. Vəziyyəti aydınlaşdırmaq üçün evə gedəndə isə qohumlardan çoxu şok keçirərək bayılıb, bəziləri isə evdən qaçıb. Anası isə qəzetçilərə açıqlamasında “həyatı boyu bu qədər sevinmədiyini” deyib.




**QOÇ** - Risk etməyə lüzum yoxdur. Çünki hazırkı durumunuz ifrat əsəbiliyinizdən xəbər verir. Amma ailə-sevgi münasibətlərində, eləcə də kollektivlə davranışda mülayimlik göstərsəniz, işləriniz qaydasına düşəcək.

**BUĞA** - Bəri başdan nəzərinizə çatdıraq ki, ixtiyarınıza olduqca məsuliyyətli bir gün düşüb. Belə ki, işlək saatlarda çoxlu sayda yeniliklərin şahidi olacaq, maraqlı təkliflər alacaqsınız.

**ƏKİZLƏR** - Ulduzlar gün boyu maraqlı insanlarla görüşəcəyinizi bəyan edir. Bu, işgüzar əməkdaşlıq da ola bilər, dostluq-yoldaşlıq da. Hətta boşluğunuz varsa, məhəbbət dəryasına da düşə bilərsiniz.

**XƏRÇƏNG** - İlk növbədə səhhətinizə qayğı göstərin. Çünki yalnız sağlam bədəndə sağlam ruh olur. Ruh da ki sağlam olmadı, onda kosmik fərd kimi cılızlaşırsan. Həmişə başqalarını müzakirə etməkdənsə öz ideya və məramlarınızı analiz edin.

**ŞİR** - Kifayət qədər düşərli zaman kəsiyindən keçəcəksiniz. Bu prosesi daha ideal səviyyəyə yüksəltmək üçün ətrafınıza sadiq tərəfdaşlar toplamalısınız. Günün “ən varlı” zodiak işarəsi də məhz siz olacaqsınız.

**QIZ** - Bir qədər gərgin təqvim olsa da, proseslərə neytral yanaşmaqla gözlənilən təhlükələri dəf edə bilərsiniz. Saat 16-18 aralığında istənilən riskli sövdələşmələrdən, köhnə qisasçılıq prinsiplərindən əl çəkin.

**TƏRƏZİ** - Göy qübbəsi müqəddəs ziyarətgahlarımıza baş çəkməyinizi tövsiyə edir. Dünyanı kiçik, Tanrı kəramətini böyük bilməlisiniz. Bu həyat kodunu anlasanız, ayın sonuna kimi zaman xeyrinizə işləyəcək.

**ƏQRƏB** - İlahinin verdiyi hər günə şükür edin, bədgüman olmayın. Ən azı ona görə ki, ixtiyarınızda olan təqvimdə sizi narahat edən əksər sahələrdə - qarşılıqlı münasibətlərdə, maliyyə məsələlərində, həmçinin fəaliyyətdə müsbət nəticələr əldə edəcəksiniz.

**OXATAN** - Xırda maliyyə problemlərinə görə narahat olmayın. Çünki günün elə ilk saatlarından bu istiqamətdə uğurlarınız bol olacaq. Fikirləşin görün, İlahidən gələn missiyanız hazırkı fəaliyyətinizlə üst-üstə düşürmü?

**OĞLAQ** - Saat 15-ə qədərki müddəti səbrlə başa vursanız, qalan saatlardan xoşagəlməzlik gözləməyin. Çünki ulduzlar bu gün şəxsi işlərinizdə böyük dönüş yaratmaq istəyir. Bunun üçün sadəcə, əzmkarlığınızı artırmağınız kifayətdir.

**SUTÖKƏN** - Yəqin bilirsiniz ki, “hakimiyyətdə” olan Oğlaqla sizin bürcü əsasən Saturn idarə edir. Bu isə təbii olaraq sizi də qalan bürclərdən daha enerjili və daha şanslı olmağınıza dəlalət edəcək.

**BALIQLAR** - Saat 11-13 və 16-18 arası iştirakçısı olduğunuz situasiyaların əksəriyyəti gərgin fonla müşayiət olunduğundan bütün ciddi işlərinizi təxirə salmalısınız. Əks təqdirdə çoxsaylı uğursuzluqlarla rastlaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Saçlarının uzunluğu 4 metr, çəkisi 2 kilodu



Bu adam 15 yaşından bu yana saçını kəsmir. 85 yaşındaki Tien Gianq Vyetnamda yaşayır. Cənubi Vyetnamda yaşayan yaşlı adam tam 70 ildir ki, saçlarına qayçı belə vurmayıb. Daim uzanan saçları isə 70 ildə 4 metrə çatıb. Adamın saçlarının çəkisi isə iki kiloya çatıb. T.Gianq onları yumadığı üçün bu saçlar bir kəndiri xatırlatmağa başlayıb. 85 yaşında olmasına rəğmən, son dərəcə sağlam olan Tien eynək olmadan oxuya bilir, hətta sapı iynədən də keçirə bilir. Deyilənə görə, o, gündə iki dəfə meyvə-tərəvəz ağırlıqlı yeməklərə üstünlük verir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100